# İrəvanla İstanbul arasında çarter reysləri açılacaq

Türkiyə ilə Ermənistan xüsusi nümayəndələr təyin edəcək



**”Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşması üçün qarşılıqlı xüsusi nümayəndələr təyin olunacaq”.**

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Türkiyə Böyük Millət Məclisində 2022-ci ilin plan və büdcə komissiyasının müzakirələri zamanı çıxışında bildirib.

(səh.2)

## DİN xəbərdarlıq edib

Qanunsuz aksiya ilə bağlı tədbirlər görüləcək

**Daxili İşlər Nazirliyi sosial şəbəkələrdə dekabrın 15-də saat 12:00-da paytaxtın Fəvvarələr Meydanında razılaşdırılmamış qanunsuz aksiya keçirmək barədə çağırışlara münasibət bildirib.**

DİN-in Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov bildirib ki, belə çağırışlardan artıq xəbərdardırlar:

**”Dekabrın 1-də olduğu kimi, bu dəfə də ictimai asayişin qorunması məqsədilə müvafiq tədbirlər görüləcək. Bu zaman yarana biləcək hər hansı insidentin məsuliyyəti qeyd olunan aksiyanın təşkilatçılarının üzərinə düşəcək”.**



# Şəhərin 40 faizi tikilib qurtarıb

Normaların müəyyənləşməsi çox yaxşıdır, amma gecikiblər

**Azərbaycanda yaşayış binaları ilə bağlı yeni qaydalar müəyyən olunur. Bu barədə məsələ Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının təsdiqlədiyi ”Yaşayış binaları.**

Layihələndirmə normaları”nda öz əksini tapıb. Belə ki, damda radiorele dirəklərinin və qüllələrinin quraşdırılması qadağan edilir. Azərbaycanda yaşayış binalarının damında verilişlərin kollektiv qəbulu üçün televiziya anteni və radio verilişi şəbəkə dirəyinin quraşdırılması nəzərdə tutulmalıdır. Azərbaycanda yaşayış binalarında balkonların layihələndirilməsi üçün də əlverişsiz hallar müəyyən edilir.

Normalarda qeyd olunur ki, Azərbaycan Respublikasının iqlim şəraitində yaşayış binalarında lociya və balkonların layihələndirilməsi zəruridir. Bu zaman lociya və balkonların layihələndirilməsi üçün əlverişsiz şərait və hallar nəzərə alınmalıdır. Lociya və balkonların layihələndirilməsi üçün əlverişsiz hallar - nəqliyyat magistrallarından və ya sənaye ərazilərindən gələn səs-küyün səviyyəsi yaşayış binalarının fasadının qarşısında 75 dB və daha artıq olması və yay aylarında 15 gün və daha artıq müddətə havadakı tozun miqdarı 1,5 mq/m3 və daha artıq olması hesab ediləcək.

(səh.5)


❒ № 228 (5510), 2021-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az

14 dekabr 2021-ci il (çərşənbə axşamı)


# Brüsseldə görüş

## Bu gün Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri bir araya gələcək




## Ali Baş Komandanı Brüsseldə Avropadakı vətənpərvər azərbaycanlılar qarşılayıb

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dünən Brüsselə səfər gəlib. Ali Baş Komandanı Belçika paytaxtında Avropada yaşayan çoxsaylı azərbaycanlı vətənpərvər qarşılayıb.**

Onlar əllərində fransız və ingilis dillərində "Cənab Prezident, xoş gəlmisiniz!", "Avropa azərbaycanlıları Sizi salamlayır!", "Azərbaycan ümumi dəyərlərə hörmət edir!" sözləri yazılmış plakatlar, eyni zamanda, Azərbaycanın və Avropa İttifaqının bayraqlarını tutublar.

(səh.2)

## Avropalı diplomat alqışladı

Azərbaycan və Ermənistan müdafiə nazirləri arasında birbaşa təmas öz bəhrəsini verib



**“Biz Azərbaycan və Ermənistan arasında etimadın gücləndirilməsi istiqamətində tərəflərlə intensiv şəkildə işləyirik”.**

APA-nın xəbərinə görə, bu barədə yüksək vəzifəli avropalı diplomat bildirib.

O qeyd edib ki, Aİ tərəflərlə işləməyə sadiqdir.

Diplomat Avropa İttifaqı Şurasının Prezidentinin Azərbaycan və Ermənistan liderləri ilə telefon danışığının olduğunu xatırladıb.

"Eyni zamanda, tərəflər müdafiə nazirləri arasında birbaşa təmasın yaradılmasına razılıq verdi. Düşünürəm ki, bu təmasın yaradılması artıq öz bəhrəsini verib. Belə ki, de-eskalasiya mümkün olub. Bu, gələcəkdə də hər hansı gərginliyin meydana çıxmasının qarşısını alacaq. Hələ görülməsi işlər çoxdur", - deyə diplomat vurğulayıb.



“Avropa İttifaqı rəhbərliyi artıq tərəflərin bir-birilə sülh və əməkdaşlıq şəraitində yaşamasını, ortaq bir nöqtəyə gəlməsini istəyir”

**Bu gün Belçikanın paytaxtı Brüssel şəhərində Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçiriləcək.**

Görüş "Şərq Tərəfdaşlığı" proqramının dekabrın 15-də keçiriləcək sammiti ərəfəsində baş tutacaq.

Əvvəlcə Prezident İlham Əliyevlə Ş.Mişel arasında ikitərəfli görüş olacaq. Avropa İttifaqı Şurasının Prezidenti daha sonra N.Paşinyanla danışıqlar aparacaq.

Sonra isə liderlər arasında üçtərəfli görüş keçiriləcək.

Maraqlıdır, rəsmi Bakının Brüssel görüşündən başlıca gözləntiləri nələrdir?

Siyasi analitik Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, liderlərin görüşdə bəzi pozitiv məqamlar ortaya çıxa bilər:

(səh.2)



## Rusiya 4 ildən sonra da Qarabağda qalmağa çalışacaq

Əgər bu mümkün olmasa, daha böyük siyasi qazanc əldə etmək istəyəcək

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin erməni jurnalistlərin rus sülhməramlılarının 5 ildən sonra Qarabağda qalma müddətinin uzadılıb-uzadılmayacağı haqda sualına cavab verib. Səfir bildirib ki, "hər şeyi həyat və zaman göstərəcək".**

Ekspertlərin qənaətincə, səfirin bu cür cavabı erməni ictimai rəyinə ünvanlanmaqla yanaşı, həm də Moskvanın yanaşmasını əks etdirir.

(səh.4)

# Xankəndiyə dəmir yolunun çəkilməsi böyük hadisə olacaq

**”Bərdədən Ağdama dəmir yolu xəttinin bərpası başa çatdıqdan sonra Xankəndiyə də dəmir yolu xəttinin çəkilməsi planlaşdırılır”.**

Bu barədə "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib. Sədr Şuşaya dəmir yolu xəttinin çəkilməsi barədə də danışıb: "Bu istiqamətdə layihələndirmə işləri gedir. Amma tikinti işlərinə nə zaman başlanılacağını deyə bilmərəm. Nə zaman qərar verilsə, ondan sonra işlərə başlanılacaq".

Cavid Qurbanovun dediklərini şərh edən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Xankəndiyə dəmir yolunun çəkilməsi böyük hadisə sayıla bilər.

(səh.3)

Amma ilk növbədə bölgədəki separatçılar tərksilah olunmalı, mülki ermənilər Azərbaycan qanunlarına tabe olmalıdırlar



## Daha 518 nəfər koronavirusa yoluxub

16 nəfər ölüb, 871 nəfər müalicə olunaraq sağalıb




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 518 yeni yoluxma faktı qeydə alınıb, 871 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 16 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 604 998 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 577 135 nəfər müalicə olunaraq sağalıb, 8 104 nəfər vəfat edib, aktiv xəstə sayı 19 759 nəfərdir.

## Ermənistan ordusunun bir qrup yüksək rütbəli zabiti həbs edilib



**Ermənistan Silahlı Qüvvələrinin bir qrup yüksək rütbəli zabiti həbs olunub.**

"Report" "Aysor"a istinadən xəbər verir ki, bu barədə Ermənistan İstintaq Komitəsi məlumat yayıb.

Bildirilib ki, Ermənistan Müdafiə Nazirliyi kommunal əməliyyatlar üzrə hərbi hissənin rəis müavini, polkovnik-leytenant, həmin hərbi hissənin rəisi, Silahlı Qüvvələrin Baş Qərargahının arxa cəbhə idarəsinin rəisi və başqaları barəsində həbs qətimkan tədbiri seçilib.

Yüksək rütbəli zabitlər barəsində istintaq davam edir.

*Qeyd edək ki, onlara qarşı müxtəlif ittihamlar irəli sürülmüşdü. Ancaq barələrində həbs qətimkan tədbiri dekabrın 13-də seçilib.*



## "Mövcud olan bəzi manеələr aradan qaldırıla bilər"

İran Prezidenti: “Türkmənistan, İran və Azərbaycan arasında üçtərəfli əməkdaşlıqlar sahəsində müsbət addımlar atılıb”

(səh.2)

## Saxta demoqrafik rəqəmlər yaradırlar

Rusiya Qarabağda özünə dayaq formalaşdırmaq istəyir



(səh.6)

# "Siz Ağdam şəhərini təmsil edirsiniz"

## Prezident İlham Əliyev: "Qarabağ Azərbaycan futbolunun flaqman komandasıdır"



**Dekabrın 13-də Prezident İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn "Qarabağ" futbol klubunun üzvlərini qəbul edib. Dövlət başçısı əldə edilmiş nailiyyət münasibəti ilə idmançıları təbrik edib. Ölkə rəhbəri vurğulayıb ki, "Qarabağ" futbol klubu Azərbaycan azarkeşlərini, bütün xalqı bir daha sevindirib:**

"Qarabağ" futbol klubu Azərbaycan futbolunun flaqman komandasıdır. Bu, birinci dəfə deyil ki, "Qarabağ" beynəlxalq yarışlarda böyük uğurlar qazanır, xalqımızı, ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir. Bu uğurlar təsadüfi deyil. Çünki bilirəm ki, klub rəhbərliyi, məşqçi heyəti, futbolçular həm yüksək məsuliyyət, peşəkarlıq göstərirlər, eyni zamanda, müntəzəm olaraq peşəkarlığı artırmaq, daha da yaxşı nailiyyətlər əldə etmək üçün yorulmadan çalışırlar. Əlbəttə, sirr deyil ki, "Qarabağ" futbol klubunun adı sizin üzərinizə əlavə məsuliyyət qoyur. Siz həm işğal dövründə, həm İkinci Qarabağ müharibəsində əldə edilmiş tarixi Zəfərdən sonra Qarabağ adını uca tutursunuz, bu adı bütün Avropa futbol məkanında təbliğ edirsiniz. Bir daha demək istəyirəm, nəzərə alsaq ki, uzun illər torpaqlarımız, o cümlədən Ağdam şəhəri işğal altında idi, hər qələbə, "Qarabağ" futbol klubunun hər tarixi addımı hər bir Azərbaycan vətəndaşını sevindirirdi. Əminəm ki, növbəti mərhələdə də siz komandaya xas olan əzmkarlıq və vətənpərvərlik göstərərək xalqımızı sevindirəcəksiniz. Mən sizinlə üçüncü dəfə görüşürəm - 2014-cü ildə, 2017-ci ildə və bu dəfə. Nə üçün? Çünki siz ölkəmizə, xalqımıza qələbələr gətirirsiniz və çox istərdim ki, bizim digər futbol klublarımız sizin yolunuzla getsin və mən onlarla da görüşüm, onları da nailiyyətlər, uğurlar münasibətilə təbrik edim".

**"Hakim səhvi yox, hakim ədalətsizliyi. Bu biabırçı hadisəyə səhv demək düzgün olmaz"**

**Prezident vurğulayıb ki, Avropa Konfrans Liqası turnirinin pley-off mərhələsinə çıxmaq doğrudan da böyük nailiyyətdir:** "Əlbəttə, biz səkkizdəbir oyuna birbaşa çıxa bilərdik. Ancaq əfsuslar olsun ki, hakim ədalətsizliyi buna imkan vermədi. Mən bu sözü təsadüfən işlətmirəm. Hakim səhvi yox, hakim ədalətsizliyi. Çünki bu biabırçı hadisəyə səhv demək düzgün olmaz. Eyni zamanda, bu, birinci dəfə deyil ki, "Qarabağ" futbol klubu Avropa yarışlarında belə açıq ədalətsizliklə üzləşir. Əvvəlki illərdə də dəfələrlə buna rast gəlmişik. Bu dəfə qrup mərhələsində dəfələrlə buna rast gəlmişik. 2014-cü ildə həlledici oyunda son dəqiqələrdə vurulmuş təmiz qolu hakim saymadı və beləliklə, sizi növbəti mərhələdən məhrum etdi. O vaxt səhv etmirəmsə, Zelinka familiyalı çexiyalı hakim belə bir biabırçı addım atıb. Çox təəssüf edirəm ki, Avropa futbol məkanında bu biabırçı ənənə davam edir. Bu dəfə də xorvatiyalı hakim Yoviç açıq-aydın bütün tamaşaçıların, televiziya tamaşaçılarının gözü önündə vurulmuş təmiz qolu saymadı. Buna səhv demək mümkün deyil. Çünki bu, Avropa turniridir. Bu, kənd turniri deyil, məhəllə turniri deyil, həyətlərarası turnir deyil. Bu, Avropa turniridir, buraya Avropanın ən peşəkar, ən təcrübəli hakimləri cəlb olunur və bu oyunlarda hakimlik edirlər. Necə ola bilər ki, qapı xəttindən ən azı bir metr keçən topu görməyəsən. Yaxşı, sən görmürsən, korsan, yan hakim də görmür, o da kordur? Bu korları necə yığıb doldurublar buraya?! Nə üçün məhz "Qarabağ"ın oyunlarında biz bu biabırçı mənzərə ilə üzləşirik. Mən bunun cavabını bilirəm, siz də bilirsiniz, Azərbaycan xalqı da bilir: ədalətsizlik, ikili standartlar, bizə, ölkəmizə, - təkcə sizə yox, - ölkəmizə qərəzli münasibət. Bunun cavabı budur. Əgər bir dəfə olsaydı, iki dəfə olsaydı deyərdik ki, ola bilər, səhv olub. Hansısa təsadüfi hadisə nəticəsində baş verib. Yox, bu, sistem xarakterli problemdir".

**"Sizin qələbəniz sadəcə idman qələbəsi deyil"**

**Ölkə rəhbəri bəyan edib ki, müharibənin başa çatmasından bir ildən çox vaxt keçir**: "İndi baxın, bir Avropa təşkilatı bu müsibət, bu fəlakət, bu faşizmlə bağlı bir söz deyib? Yox! Görməzliyə vururlar, sanki bu, heç olmayıb. İndi Ağdam şəhəri yoxdur, tamamilə dağıdılıb, talan edilib və hər tərəf minalanıb. Müharibə başa çatandan sonra biz artıq 200 nəfərə yaxın insanı ya itirmişik, ya da ki, onlar şikəst olub, əlil olub. Amma bir Avropa təşkilatı Ermənistanı bu müsibətə görə qınayıbmı? Yox! İşğal dövründə etnik təmizləməyə görə, Xocalı soyqırımına görə bir Avropa təşkilatı Ermənistanı qınayıbmı? Yox! Həqiqət budur, reallıq budur və əlbəttə ki, biz bu reallığı nəzərə almalıyıq, amma heç vaxt barışmamalıyıq. Necə ki, işğalla barışmamışdıq, ədalətsizliklə barışmamışdıq. Güc topladıq, düşmənə elə zərbə vurduq ki, bütün dünya bizim Qələbəmizlə bağlı artıq bir söz deyə bilmir və bütün dünya məcbur olub bizim tarixi Zəfərimizi qəbul edib. Çünki bunun başqa yolu yoxdur. Nəyə görə? Güc, iradə, birlik, həmrəylik və məsuliyyət. Siyasətdə, həyatda, idmanda, bax, bu amillər hesab edirəm ki, hər bir insana, siyasətçiyə başucalığı gətirəcək. Bir daha demək istəyirəm ki, sizin qələbəniz sadəcə idman qələbəsi deyil. Çünki siz Ağdam şəhərini təmsil edirsiniz. Əminəm ki, gün gələcək biz Ağdamı dediyim kimi quracağıq, elə Ağdam quracağıq ki, bütün dünyaya örnək olacaq və siz ev oyunlarınızı Ağdamda keçirəcəksiniz, "İmarət" stadionunda keçirəcəksiniz, orada parlaq qələbələr qazanaraq, xalqımızı sevindirəcəksiniz", - Azərbaycan Prezidenti qeyd edib.

**"Qarabağ" klubu, rəhbərlik, məşqçilər həmişə özlərini çox ləyaqətlə aparırlar"**

**Prezident qeyd edib ki, futbol və idman siyasətdən ayrı olmalıdır:** "Bunu bir çoxları deyir, amma əfsuslar olsun ki, bir çoxları da bu prinsipi pozur. Çünki idmanı siyasiləşdirmək, idmandan siyasi alət kimi istifadə etmək, idman nailiyyətlərini siyasi müstəviyə keçirmək cəhdləri kifayət qədər çox olub. Mən artıq 24 ildir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu illər ərzində dəfələrlə beynəlxalq yarışlarda, Olimpiya Oyunlarında bizə qarşı olan ədalətsizliklə rastlaşmışam. Son Olimpiya Oyunları istisna deyil. Əlbəttə ki, biz səssiz qalmamalıyıq. Mən bilirəm ki, "Qarabağ" klubu, rəhbərlik, məşqçilər, həmişə özlərini çox ləyaqətlə aparırlar, bəzi başqa məşqçilər və klub rəhbərləri kimi hay-haray salmırlar, qalmaqal yaratmırlar, əl-qol açmırlar. Mən bunu təqdir edirəm. Güclü insan həmişə özünü nizamlı aparır, həmişə gücünü lazım olan halda işə salır və bunu mən alqışlayıram. Ancaq o demək deyil ki, hər dəfə bizə qarşı belə biabırçı hadisə baş versin. Avropa futbol ailəsində qəbul edilmiş qaydalar əsasında lazımi hüquqi addımlar atılmalıdır ki, gələcəkdə belə hallar təkrarlanmasın. Bununla paralel olaraq onu da deməliyəm ki, nə üçün mən buna bu qədər fikir verirəm. Bilin, hər bir Azərbaycan vətəndaşı kimi, o biabırçı halı görəndə mənim də ürəyim ağrıyır. Mən də ürəyimdə deyirdim, biz buna nə qədər dözməliyik. Nə vaxta qədər bu, davam edəcək. Biz hamımız yaxşı başa düşürük ki, bu, elə-belə hadisə deyil. Ya təlimatlanmış hakim bunu edir, ya da ki, özü hansısa fikirlər və duyğular əsasında bunu edir. Bunun başqa adı ola bilməz. Bunu görməmək mümkün deyil. Eyni zamanda, bu, bizi ruhdan salmamalıdır. Biz 28 il ərazisi işğal edilmiş ölkə kimi yaşamışıq. İyirmi səkkiz il dözüm göstərmişik, hazırlıq işləri aparmışıq, güc toplayırdıq və bu gücü topladıq, düşməni torpaqlarımızdan qovduq. Bu illər ərzində nə qədər ədalətsizliklərlə, nə qədər ikili standartlarla üzləşmişdik. Bu, bizi qətiyyən ruhdan salmadı, əksinə, məni prezident kimi daha da ruhlandırırdı, daha da əzmkar edirdi, daha qətiyyətli edirdi və bu tarixi missiyanı yerinə yetirmək üçün əlavə güc verirdi. Əminəm, bu ədalətsizlik sizə də əlavə güc verəcək, siz növbəti oyunlara daha böyük əzm və iradə ilə çıxacaqsınız, "Qarabağ" adını, Azərbaycan futbol ictimaiyyətinin adını uca tutacaqsınız".

**İsmayıl**



# Ali Baş Komandanı Brüsseldə Avropadakı vətənpərvər azərbaycanlılar qarşılayıb




**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dünən Brüsselə səfər gəlib. Ali Baş Komandanı Belçika paytaxtında Avropada yaşayan çoxsaylı azərbaycanlı vətənpərvər qarşılayıb.**

Onlar əllərində fransız və ingilis dillərində "Cənab Prezident, xoş gəlmisiniz!", "Avropa azərbaycanlıları Sizi salamlayır!", "Azərbaycan ümumi dəyərlərə hörmət edir!" sözləri yazılmış plakatlar, eyni zamanda, Azərbaycanın və Avropa İttifaqının bayraqlarını tutublar.

Qeyd edək ki, Prezident İlham Əliyevin səfər çərçivəsində dekabrın 14-15-də Brüsseldə bir neçə tədbirdə iştirakı və görüşləri nəzərdə tutulur.

Dekabrın 14-də Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçiriləcək.

Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 14-də NATO-nun Baş katibi Yens Stoltenberqlə görüşəcək.

Prezident İlham Əliyev NATO-nun Şimali Atlantika Şurasının iclasında da iştirak edəcək.

Azərbaycan Prezidenti və Baş katib görüşdən sonra NATO qərargahında mətbuat konfransı keçirəcəklər.

Azərbaycan Prezidenti dekabrın 15-də keçiriləcək "Şərq Tərəfdaşlığı" Sammitində də iştirak edəcək.

## Amnistiya aktına əsasən 140 şəxs barəsində cinayət işinə xitam verilib



**2021-ci ilin yanvar-noyabr ayları ərzində prokurorluq orqanları tərəfindən 140 şəxs barəsində amnistiya aktına əsasən cinayət işi üzrə icraata xitam verilib.**

Bu barədə "Şərq"ə Baş Prokurorluqdan məlumat verilib.

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən prokurorluq orqanlarının fəaliyyətini əks etdirən rəqəmlər barədə kütləvi informasiya vasitələri və sosial şəbəkələrdə gününrəqəmi həştəqi ilə məlumatlar yerləşdirilir.

Bu günün rəqəmi isə 140-dır.

Belə ki, 2021-ci ilin yanvar-noyabr ayları ərzində prokurorluq orqanları tərəfindən 140 şəxs barəsində amnistiya aktına əsasən cinayət işi üzrə icraata xitam verilmişdir.



## "Qarabağ" futbol klubuna 5 milyon manat ayrılıb

**Prezident İlham Əliyev "Qarabağ" futbol klubuna maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, UEFA Konfrans Liqasının qrup mərhələsində uğurla iştirak edərək növbəti mərhələyə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Qarabağ" futbol klubuna 5 milyon manat ayrılsın.

Maliyyə Nazirliyi sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək, Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılır.

# İlon Mask ilin adamı seçilib



**"Time" jurnalı dünyanın ən varlı insanı, "SpaceX" və "Tesla" avtomobil şirkətinin yaradıcısı İlon Maskı "2021-ci ilin adamı" elan edib.**

Bununla bağlı İ.Maskın iyirmi ildir yaxın dostu, "Tesla" və "SpaceX" şirkətlərinin idarə heyətində çalışmış Antonio Qrasias bildirib: "O, ağır şəraitdə böyüyüb və xüsusilə ağıllı olub... İnsanların 99,9%-i belə vəziyyətlərin öhdəsindən gəlmir. Kiçik bir faiz bunu ciddi təzyiq altında mühüm qərarlar qəbul etmək bacarığı və insanlıq yolunu dəyişmək üçün sonsuz istək sayəsində edir".

"Tesla" avtomobil şirkəti elektrik avtomobil bazarının üçdə ikisinə nəzarət edir və 1 trilyon dollar dəyərində qiymətləndirilir. Məqalədə qeyd olunui ki, sərvəti 250 milyard dollardan çox olan İ.Mask tarixin ən zəngin şəxsi hesab olunur.

# Paşinyanın deputat qaynı Ermənistan Milli Təhlükəsizlik Xidmətinə çağırılıb



**Ermənistan parlamentinin deputatı, hakim "Vətəndaş Müqaviləsi" partiyasının üzvü Qraçya Akopyan Milli Təhlükəsizlik Xidmətinə ifadə verməyə çağırılıb.**

APA-nın "Spuntik Armenia"ya istinadən verdiyi xəbərə görə, deputat parlamentdə dekabrın 7-də baş vermiş dava ilə bağlı ifadə verməyə dəvət olunduğunu, lakin şahid, yaxud təqsirli şəxs qismində çağırıldığını bilmədiyini bildirib.

*Xatırladaq ki, deputat Qraçya Akopyan Baş nazir Nikol Paşinyanın qaynıdır.*

# "Mövcud olan bəzi maneələr aradan qaldırıla bilər"

## İran Prezidenti: "Türkmənistan, İran və Azərbaycan arasında üçtərəfli əməkdaşlıqlar sahəsində müsbət addımlar atılıb"



**Türkmənistan, İran və Azərbaycan arasında qazla bağlı əməkdaşlıqlar və qaz svopu üzrə müsbət addımlar atılıb.**

Trend İran Prezident Aparatının informasiya portalına istinadən xəbər verir ki, bunu İran Prezidenti İbrahim Rəisi Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovla telefon söhbətində deyib.

İ.Rəisinin sözlərinə görə, İran və Türkmənistan arasında nəqliyyat və məhsul tranziti sahəsində birgə əməkdaşlıqlar davam etdirilir. İki dövlətin səyi ilə bu sahədə mövcud olan bəzi maneələr aradan qaldırıla bilər.

Telefon söhbətində Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov da Azərbaycan və Türkmənistan arasında İran üzərində qaz svopu müqaviləsini əhəmiyyətli müqavilə adlandırıb və bu sahədə üç ölkə arasında birgə əməkdaşlıq komissiyasının yaradılmasını istəyib.

Q.Berdiməhəmmədov bildirib ki, Aşqabad İran və Türkmənistan arasında ikitərəfli münasibətlərin, eləcə də ticarət və səhiyyə sahəsində əlaqələrin inkişaf etdirilməsini dəstəkləyir.

*Qeyd edək ki, noyabrın 28-də Türkmənistanın paytaxtı Aşqabadda ildə 1,5-2 milyard kubmetr Türkmənistan qazının İran vasitəsi ilə Azərbaycana tədarük edilməsi üzrə üçtərəfli müqavilə imzalanıb. Müqavilənin icrasına dekabrın 22-dən başlanılacağı və gündəlik 5-6 milyon kubmetr qazın nəqli gözlənilir.*

# İrəvanla İstanbul arasında çarter reysləri açılacaq

## Türkiyə ilə Ermənistan xüsusi nümayəndələr təyin edəcək



**"Türkiyə ilə Ermənistan arasında əlaqələrin normallaşması üçün qarşılıqlı xüsusi nümayəndələr təyin olunacaq".**

APA-nın yerli bürosunun xəbərinə görə, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Türkiyə Böyük Millət Məclisində 2022-ci ilin plan və büdcə komissiyasının müzakirələri zamanı çıxışında bildirib.

M.Çavuşoğlu deyib ki, Azərbaycanla aparılan məsləhətləşmələr və razılıq əsasında Ermənistanın paytaxtı İrəvanla İstanbul arasında çarter reysləri açılacaq: "Can Azərbaycanla birgə Qafqazda daimi sülhün bərpası üçün sıx diplomatik əlaqələr içərisindəyik".

Nazir hər addımda Azərbaycanla birlikdə hərəkət edəcəklərini də vurğulayıb.



# Ermənistanın mina xəritələrini təhvil verməsi işimizə yarayacaq

İsmayıl Qocayev

Əslində Ermənistan tərəfi öz cinayətlərini sübut edən dəlilləri bizə verib

**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Ermənistan tərəfindən alınmış minalı ərazilərin xəritələrindən danışıb. XİN rəhbəri bildirib ki, indiyə kimi Ermənistan tərəfindən təqdim olunan mina xəritələrinin dəqiqlik faizi çox aşağıdır. Nazirin sözlərinə görə, həmin xəritələrin dəqiqliyi təxminən 25 faizdir:**

”Ermənistan tərəfindən təqdim olunan yeni mina xəritələri mütəxəssislər tərəfindən təhlil edilir. Amma bunun üçün zaman lazımdır. Xəritələrin tədqiqindən sonra faciələrin qarşısını ala bilərik”. Xatırladaq ki, ötən həftə Minatəmizləmə Agentliyinin İdarə heyətinin sədri Vüqar Süleymanov da mina xəritələri ilə bağlı narahatlığını ifadə etmişdi. ANAMA rəhbəri vurğulamışdı ki, mina sahələrinin xəritələrində adətən ərazinin koordinatları, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə qaydalarına dair məlumatlar qeyd olunur. Lakin Ermənistanın təqdim etdiyi formulyarlarla ilkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır: ”Ermənistan tərəfindən təqdim edilən xəritələrin işğaldan azad edilmiş bütün əraziləri tam şəkildə əhatə etməsi ilə bağlı ciddi narahatlığımız mövcuddur”. Məlumat üçün bildirək ki, Ermənistan tərəfindən Ağdam, Füzuli və Zəngilan rayonları üzrə daha öncə verilmiş mina sahələri üzrə məlumatların 75 faizi yanlış çıxmışdı. O baxımdan bəzi ekspertlər hesab edirlər ki, mina xəritələrində İrəvana qətiyyən etibar etmək olmaz. Hətta onlar sonuncu ”əsir”-xəritə mübadiləsinin də doğru olmadığını düşünürlər. Vurğulayırlar ki, erməniyə güvənərək onların doğru xəritə təqdim edəcəyinə inanmaq sadəlövhlükdür.

> “Artıq bundan sonra Ermənistan müharibə cinayətləri törətməkdən imtina edə, maddi təzminat ödəməkdən boyun qaçıra bilməz”

**Ermənilərdən alınmış xəritələrlə bağlı müzakirələri ”Şərq”ə dəyərləndirən siyasi şərhçi Azər Qasımov ”Şərq”ə açıqlamasında deyib ki, ermənilərin təqdim etdiyi xəritələrin doğruluğu ciddi yoxlanılır. Analitikə görə, indiki halda ən vacib məqam Ermənistanın təhvil verdiyi minalanmış ərazilərin xəritələrinin nə qədər doğru, yaxud yanlış olması deyil:** ”Önəmli məsələ odur ki, ermənilər xəritələri təqdim etməklə nə boyda ərazidə minalanma işlərinin aparıldığını təsdiqləyirlər. Biz də xəritələri alaraq bunu sübut etmiş oluruq. Əlbəttə, ermənilərdən alınmış xəritələrin dəqiqliyinə inanmaq sadəlövhlük olardı. Azərbaycan bu xəritələri almaqla beynəlxalq ictimaiyyətə Ermənistanın münaqişə tərəfi olduğunu göstərir. Ən əsası isə gələcəkdə beynəlxalq məhkəmədə İrəvana təzminat davası açıldıqda həmin xəritələrin Ermənistan tərəfindən Azərbaycana verilməsi maddi sübut kimi istifadə oluna bilər. Xəritələri kim tərtib edibsə, deməli, minaları da o basdırıb və Azərbaycana maddi ziyan vurub. Əslində Ermənistan tərəfi öz cinayətini sübut edən dəlilləri bizə verib. Xəritələri üçbeş ”əsir” qarşılığında geri almaqla Ermənistanı tələyə salmışıq. Artıq bundan sonra Ermənistan müharibə cinayətləri törətməkdən imtina edə, maddi təzminat ödəməkdən boyun qaçıra bilməz”.

# Brüsseldə görüş

## Bu gün Avropa İttifaqının vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri bir araya gələcək

> “Avropa İttifaqı rəhbərliyi artıq tərəflərin bir-birilə sülh və əməkdaşlıq şəraitində yaşamasını, ortaq bir nöqtəyə gəlməsini istəyir”

**Bu gün Belçikanın paytaxtı Brüssel şəhərində Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçiriləcək.**

Görüş ”Şərq Tərəfdaşlığı” proqramının dekabrın 15-də keçiriləcək sammiti ərəfəsində baş tutacaq.

Əvvəlcə Prezident İlham Əliyevlə Ş.Mişel arasında ikitərəfli görüş olacaq. Avropa İttifaqı Şurasının Prezidenti daha sonra N.Paşinyanla danışıqlar aparacaq.

Sonra isə liderlər arasında üçtərəfli görüş keçiriləcək.

*Maraqlıdır, rəsmi Bakının Brüssel görüşündən başlıca gözləntiləri nələrdir?*

**Siyasi analitik Turab Rzayev ”Şərq”ə açıqlamasında bildirib ki, liderlərin görüşündə bəzi pozitiv məqamlar ortaya çıxa bilər:**

”Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bu görüşün baş tutmasında xüsusi səyi var. O, bundan əvvəl də tərəfləri ümumi ortaq müzakirəyə dəvət etmişdi. Məncə, Avropa İttifaqı bu məsələdə müsbət rol oynaya bilər. Aİ müharibə dövründə bəzi, xüsusilə, ermənipərəst qüvvələrin təsiri ilə daha çox Ermənistan tərəfindən çıxış edirdi. Ancaq müharibədən sonra biz mövqeyin yenidən dəyişdiyini və daha çox sülhə, birgə yaşayışa, iqtisadi və siyasi əməkdaşlığa yönələn çağırışların şahidi olduq”.

**Siyasi analitik Avropa İttifaqının Ermənistan - Azərbaycan münaqişəsinə bu cür yanaşacağı təqdirdə hər iki ölkənin arasında sülh və iqtisadi əməkdaşlığın yarana biləcəyini söyləyib:** ”Tərəflər artıq müharibədən uzaqlaşıb sülh müqaviləsi bağlaya bilər. Belə olduqda onların Aİ ilə arasında olan inteqrasiya problemləri də həll olunar. Tərəflər bir-birinə daha çox yaxınlaşa bilərlər. Məhz bu faktorları nəzərə alaraq mən düşünürəm ki, bu görüşdə müsbət nəticələrin əldə edilmə ehtimalı var”.



**T. Rzayev bu məqamda Rusiyanın roluna da toxunub:** ”Rəsmi Moskva münaqişənin tamamilə öz ixtiyarında qalmasını istəyir. Çalışır ki, kənar qüvvələr münaqişə tərəflərinə təsir göstərə bilməsin. Məhz ona görə də biz Soçi görüşünün Brüssel görüşündən öncə baş tutduğunun şahidi olduq. Rusiya Paşinyanı Soçiyə getməyə məcburi etdi. Paşinyan isə artıq vasitəçiliyin Rusiyadan Avropa İttifaqına keçməsini arzulayır və bununla bağlı xatırlayırsızsa Şarl Mişelə müraciət etmişdi. Avropa rəhbərliyi artıq bundan sonra Azərbaycan və Ermənistanın bir-birilə sülh və əməkdaşlıq şəraitində yaşamasını, ortaq bir nöqtəyə gəlməsini istəyir” .

**Analitik Avropa İttifaqının bu işdə həqiqətən səmimi olacağı təqdirdə ortaya müsbət nəticələrin çıxa biləcəyini vurğulayıb:**

”Yox əgər yenə də bəzi Avropa ölkələri kimi neytral mövqedən, sülhdən, əməkdaşlıqdan danışıb, əslində Ermənistanın maraqları müdafiə ediləcəksə, o zaman əlbəttə ki, real nəticə əldə etmək mümkün olmayacaq”.

**Günəş Mərd**

# Vətən müharibəsi Türkiyə ordu modelinin üstünlüklərini ortaya qoydu

## Cəlil Xəlilov: “Azərbaycanda hərbi kadrların hazırlanmasında türk zabitlərinin əməyi böyükdür”

**Azərbaycan Ordusunun daha da güclənməsi və modernləşməsi istiqamətində ciddi tədbirlər görülür. Türkiyə ordu modelinin Azərbaycan Silahlı Qüvvələri üçün nümunə götürüləcəyi bəllidir. Ordu quruculuğunda böyük təcrübəyə malik qardaş Türkiyənin hərbi-texniki sahədə uğurlarından geniş istifadə olunacaq.**



Türkiyə ordusu dünyanın ən güclü ordularından biri və NATO-da ikinci güclü ordudur. Xatırladaq ki, Prezident İlham Əliyev də bir neçə dəfə bu məsələyə təmas edib və açıq şəkildə vurğulayıb ki, ”Biz Azərbaycanda Türkiyə ordusunun kiçik modelini yaratmaq fikrindəyik”. Dövlət başçısı bəyan edib ki, Türk ordusunun müasir modeli Azərbaycan üçün ən məqbul modeldir. Ötən gün Türkiyənin Milli müdafiə naziri Hulusi Akar da parlamentdə çıxışı zamanı Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Ordusunun modernləşdirilməsinə, təlim və təhsil fəaliyyətinə böyük dəstək verdiyini açıqlayıb.

**Ehtiyatda olan polkovnik, Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov ”Şərq”ə bildirib ki, Türkiyə ordusu çağdaş dünyanın ən müasir ordularından biridir və NATO hərbi-siyasi alyansında xüsusi çəkiyə malikdir.** Polkovnik vurğulayıb ki, Türkiyə ordusu istər fiziki hazırlıq səviyyəsinə, istərsə də müasir hərbi texnikaları real hərbi əməliyyatlar zamanı uğurla tətbiq etməsinə görə dünyanın ən güclü orduları sırasında yer alır: ”Türkiyə ordusunun döyüş təcrübəsi kifayət qədər böyükdür. Qardaş ölkənin hərbçiləri uzun illərdir terrorizmə qarşı ciddi mübarizə aparır. Bu mübarizənin coğrafiyası İraq, Suriya kimi dövlətləri də əhatə edir. Əminliklə demək olar ki, bu gün dünyada terrorizmə qarşı ən ciddi və ən səmərəli mübarizə aparan qardaş Türkiyədir. Türkiyə bununla sadəcə özünün və regionun deyil, bütün bəşəriyyətin təhlükəsizliyini təmin etməyə çalışır, ümumilikdə insanlığa böyük fayda verir. Bu baxımdan Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması təbii ki, son dərəcə faydalı olar”.

**C.Xəlilov əlavə edib ki, Azərbaycanda hərbi kadrların hazırlanmasında, onların müasir hərbi texnikanın sirlərinə yiyələnməsində türk zabitlərinin əməyi böyükdür:** ”Yadınızdadırsa, Müdafiə naziri Zakir Həsənov bir neçə ay bundan öncə televiziyaya müsahibəsində Türkiyənin 8 Noyabr zəfərinə verdiyi töhfəni özünəməxsus şəkildə izah etdi. Bildirdi ki, ”44 günlük Vətən müharibəsi Azərbaycan Ordusu üçün imtahan idi və bu imtahanı Azərbaycan Ordusu verdi. Lakin Azərbaycan Ordusunu bu imtahana Türkiyə hazırlamışdı”. Bu ifadə Türkiyənin Azərbaycan Ordusunun döyüş hazırlığının, peşəkarlığının yüksəlməsində nə dərəcədə mühüm rol oynadığını göstərir. Vətən müharibəsi də Türkiyə ordu modelinin üstünlüklərini ortaya qoydu. Azərbaycan bu müharibədə həm Türkiyə, həm də İsrail istehsalı olan dronlardan kütləvi istifadə etdi. Türkiyə də Suriyadakı hərbi əməliyyatlarda dronlardan kütləvi istifadə etmiş və terrorçuların hədəflərini yüksək dəqiqliklə məhv etmişdi. Türkiyənin dronlarla bağlı təcrübəsini öyrənən və bu təcrübəni Vətən müharibəsində uğurla tətbiq edən Azərbaycan da erməni faşizminə ağır zərbə vurdu, işğalçını darmadağın etdi. Azərbaycan Ordusunun türk hərb modelinə uyğunlaşdırılması gücünün daha da artması, peşəkarlığının yüksəlməsi, döyüş bacarığının bir qədər də təkmilləşməsinə səbəb olacaq. Bu da Azərbaycanın maraqlarına tamamilə uyğundur”.

**İsmayıl Qocayev**

# Gürcüstanın "altılıq" platformasından uzaq durması təbiidir



## Azərbaycan və Türkiyə gələcəkdə Tbilisini əməkdaşlığa cəlb edə bilər

İsmayıl Qocayev

**Dekabrın 10-da Moskva şəhərində Azərbaycan, Ermənistan, Türkiyə, İran və Rusiyanın iştirakı ilə ”3+3” formatında keçirilən regional platformanın ilk toplantısı baş tutdu.**

İclasda çoxşaxəli regional əməkdaşlığın inkişaf perspektivləri müzakirə edildi. Regional platformanın işini onun bütün iştirakçılarının maraqlarına cavab verən praktiki məsələlərə yönəltmək razılaşdırıldı. Söhbət tərəflər arasında qarşılıqlı etimadın artırılması, ticarət-iqtisadi, nəqliyyat, mədəni və humanitar sahələrdə qarşılıqlı fəaliyyət, ümumi təhdidlərə qarşı mübarizə tədbirlərindən gedir. Yəni bu format region ölkələrini narahat edən, həllini gözləyən bütün məsələləri özündə ehtiva edir. Gözlənildiyi kimi, ”3+3” formatında keçirilən regional platformanın ilk toplantısında Gürcüstan iştirak etmədi. Görüşdən bir neçə gün öncə Gürcüstan Xarici İşlər Nazirliyi ölkələrinin platformasının ilk iclasında iştirak etməyəcəyini bildirmişdi. Aydın məsələdir ki, rəsmi Tiflis Rusiya faktoruna görə ”3+3” platformasında işitrak etmək istəmir. Moskva görüşü zamanı beş ölkənin nümayəndələri platformanın qapısının Gürcüstanın üzünə də açıq olduğunu bildiriblər.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə deyib ki, Gürcüstanın Rusiyanın təmsil olunduğu platformadan uzaq durması təbiidir və digər 4 ölkə bunu anlayışla qarşılayır. Professorun sözlərinə görə, rəsmi Tbilisinin həvəslə qoşulduğu yeganə format - Azərbaycan, Gürcüstan və Türkiyənin yer aldığı üçlü platformadır:** ”Üçlü format daha uğurla davam etdirilir. Gürcüstan Azərbaycan və Türkiyə vasitəsi ilə öz siyasi-iqtisadi maraqlarını təmin edir. Əlbəttə, gələcəkdə Gürcüstanın nisbətən fərqli davranış sərgiləyəcəyi, yaxud Azərbaycan və Türkiyənin Tbilisini ”altılıq” formatına cəlb etmək cəhdləri mümkündür. Amma hələki bu, real görünmür. Həm də nəzərə alaq ki, regionun bütün ölkələri qeyri-rəsmi formatlarla əməkdaşlıq içindədir. Azərbaycan-Türkiyə-Gürcüstan və Rusiya-İran-Ermənistan ayrı-ayrılıqda ”3+3” formatını davam etdirirlər. Əməkdaşlığı bu şəkildə də sürdürmək olar. Altı ölkənin mütləq şəkildə bir platformada cəmlənməsi şərt deyil”.



# Xankəndiyə dəmir yolunun çəkilməsi böyük hadisə olacaq

## Amma ilk növbədə bölgədəki separatçılar tərksilah olunmalı, mülki ermənilər Azərbaycan qanunlarına tabe olmalıdırlar

**”Bərdədən Ağdama dəmir yolu xəttinin bərpası başa çatdıqdan sonra Xankəndiyə də dəmir yolu xəttinin çəkilməsi planlaşdırılır”.**

Bu barədə ”Azərbaycan Dəmir Yolları” QSC-nin sədri Cavid Qurbanov jurnalistlərə açıqlamasında deyib. Sədr Şuşaya dəmir yolu xəttinin çəkilməsi barədə də danışıb: ”Bu istiqamətdə layihələndirmə işləri gedir. Amma tikinti işlərinə nə zaman başlanılacağını deyə bilmərəm. Nə zaman qərar verilsə, ondan sonra işlərə başlanılacaq”.

**Cavid Qurbanovun dediklərini şərh edən ”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, Xankəndiyə dəmir yolunun çəkilməsi böyük hadisə sayıla bilər. Analitikə görə, bu o deməkdir ki, Xankəndi Azərbaycanın nəzarətinə keçib və vətəndaşlarımız bu şəhərə rahat gedib-gələcəklər:** ”Cavid Qurbanovun Xankəndiyə dəmiryolunun çəkilməsi ilə bağlı verdiyi açıqlama ermənilərə mesaj əhəmiyyəti daşıyır ki, biz şəhərimizə qayıdacağıq. Ancaq təəssüf ki, bugünkü reallıq fərqlidir. Xankəndiyə dəmiryolunun çəkilməsi və gediş-gəlişin bərpası üçün müəyyən şərtlərə əməl olunması vacibdir. İlk növbədə bölgədəki separatçılar tərksilah olunmalı, mülki ermənilər Azərbaycan qanunlarına tabe olmalıdırlar. Bu məsələlər reallaşmadan Xankəndiyə nə dəmir yolu çəkilə, nə də Azərbaycan vətəndaşlarının Xankəndiyə gediş-gəlişi təmin oluna bilər. Təsadüfi deyil ki, Cavid Qurbanov sonda özünü sığortalayan ”dəmiryolu ilə bağlı nə zaman qərar verilsə, ondan sonra işlərə başlanılacaq” cümləsini işlədib. Elə əsas da bu qərara şərait yaradacaq çalışmaların sürətləndirilməsidir”.

**İsmayıl Qocayev**

# Yeni media qanununun hazırlanması bir reallıqdır

İsmayıl Qocayev

**Xəbər verdiyimiz kimi, Azərbaycanda "Media haqqında" yeni qanun layihəsi hazırlanıb və ictimaiyyətə elan olunub. Sənəd media sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Qəzet və veb saytların baş redaktorlarının, media ekspertlərinin iştirakı ilə müzakirəsi təşkil olunan yeni qanun layihəsi Milli Məclisin iki komitəsində də gözdən keçirilib.**

Gözlənildiyi kimi "Media haqqında" qanun layihəsi ilə bağlı müəyyən tənqidi fikirlər də gündəmə gəlməkdədir. Düzdür, əksər media təmsilçiləri hesab edirlər ki, Vətən müharibəsindən sonra dövlət-media, media-cəmiyyət münasibətlərində yaranmış yeni reallıqlar bu sahənin qanunvericilik bazasının yenilənməsinə də böyük tələbat yaradıb. Onlar xatırladırlar ki, Azərbaycanda 1999-cu ildə qəbul olunmuş və hazırda qüvvədə olan "Kütləvi informasiya vasitələri haqqında" qanun bu günə kimi 79 dəfə dəyişdirilsə də, hələ müasir çağırışlarla uzlaşmır. Ona görə də yeni qanun layihəsinin qəbulu şərtdir. Təbii olaraq, layihədəki bəzi məqamlarla bağlı tənqidlər də səslənir. Bir sıra ekspertlər isə layihənin geniş müzakirəyə çıxarılmadan tələm-tələsik Milli Məclisə göndərilməsini doğru saymadıqlarını deyirlər.

**Layihə ətrafında gedən gərgin müzakirələrlə bağlı fikirlərini "Şərq"ə bölüşən media mütəxəssisi, professor Qulu Məhərrəmli deyib ki, "Media" haqqında qanunun cəmiyyətdə fərqli reaksiyalar doğurması, bəzilərində hətta həyəcan və təşviş yaratması təbiidir.** Professorun sözlərinə görə, belə bir qanunun ortaya çıxması təkcə mətbuatın, jurnalistlərin deyil, bütövlükdə cəmiyyətin məsələsidir: "Hər bir vətəndaş informasiya istehlakçısıdır. Məlumatlar alırıq, oxuyuruq, yeni proseslərdən xəbərdar olmağa çalışırıq. İnformasiyanın bizə necə çatması, onun arxasında dayanan ictimai münasibətlər, onların tənzimlənməsi önəmlidir. Faktiki olaraq, yeni qanunun ortaya çıxması bir reallıq, həyati zərurətdir. Çünki "KİV haqqında" qanun 20 il bundan əvvəl qəbul olunub və dəfərlərlə dəyişiklik edilərək tanınmaz hala salınıb. Digər tərəfdən informasiya texnologiyaları, internet meydanının genişlənməsi cəmiyyətdə informasiya və hüquq münasibətlərinin tənzimlənməsini tələb edir. Əvvəlki qanunlarda olmayan şeylər, yeni onlayn medianın, internet jurnalistikasının ortaya çıxartdığı rəqəmsallaşma, konvergensiya, qloballaşma, diversifikasiya və s. problemlərin hamısını özündə ehtiva edən hüquqi normalar olmalıdır. Qanun layihəsi üzərində müəyyən əziyyət çəkilib və artıq ictimaiyyətə təqdim olunub. Adını "ictimai müzakirə" qoysalar da, bu, heç bir halda ictimai müzakirə deyil. Sadəcə cəmiyyətə məlumat verilib ki, parlamentə belə bir qanun daxil olub. Əlbəttə, qanunda bir sıra vacib müddəalar var. Media sferasının bir çox sahələrini əhatə edir, hətta "KİV haqqında" qanundan fərqli olaraq burada həm də teleradio fəaliyyətinin tənzimlənməsi nəzərdə tutulur. Çox








**Qulu Məhərrəmli:** "Ancaq sənədin ciddi müzakirəsinə və cəmiyyətdən gələn təkliflərin nəzərə alınmasına ehtiyac var"

**Müşfiq Ələsgərli:** "Qanunda müəyyən boşluqların olması istisna deyil və bunu inkar edən yoxdur"

geniş bir qanundur. Amma qanun layihəsinin ciddi müzakirəsinə və cəmiyyətdən gələn təkliflərin nəzərə alınmasına ehtiyac var. Mübahisə doğuran məqamların aydınlaşdırılmasına ehtiyac var. Bəzi məqamlar mütləq şəkildə beynəlxalq konvensiyalara uyğunlaşdırılmalıdır. İctimaiyyətə təqdim olunan qanun layihəsinin kəmkəsirləri həddindən artıq çoxdur. Sanki "çiy" və alayarımçıqdır. Qanun qəbul edərkən elə etmək lazımdır ki, ölkə Konstitusiyasının 50-ci maddəsinə və qanunun işlənməsi ilə bağlı 71-ci maddəsinə əks olmasın. Eyni zamanda Avropa İnsan Haqları Konvensiyasına və BMT-nin qəbul etdiyi sənədlərə uyğun olsun. Yəni qanun üzərində çox ciddi hüquqi proses getməlidir".

**Q.Məhərrəmli layihədə mübahisə doğuran bəzi məqamlara aydınlıq gətirib:** "Layihədə jurnalist anlayışının izahından tutmuş, jurnalistlərin reyestrdən keçməsinədək bir çox mübahisə doğuran məsələlər əksini tapıb. Media qurumlarının reyestri normal haldır. Düzdür, bəziləri buna etiraz edir, amma bilməliyik ki, cəmiyyətdə nə qədər mətbuat orqanı var, bu saytın sahibi kimdir, o qəzet haradan maliyyələşir və s. Amma jurnalistlərin reyestrdən keçməsi gülünc olmaqla yanaşı, insan hüquqlarına da ziddir. Necə ola bilər ki, mən 5 gün bir qəzetdə işləyib, başqa sayta keçəndə dərhal reyestrə məlumat verməliyəm. Belə xırda prosedurların qanun layihəsinə salınmasına ehtiyac yoxdur. Yeni informasiya texnologiyalarından və internetin gətirdiyi problemlərdən danışanlar düşünürlər ki, internet sahəsi tənzimlənməlidir. Amma beynəlxalq qanunlara görə internet və media profili heç bir halda tənzimlənə bilməz. O baxımdan internet televiziyalarının lisensiyalaşdırılması və onun lisenziyaya cəlb olunması ciddi narahatlıq yaradır. Hazırda media mühitində rənglər və strukturlar çoxdur. Azərbaycanda yutub kanalı və internet televiziyaları bir növ özünün inkişaf dövrünü yaşayır, dinamik proseslər gedir. Yaxşı cəhət odur ki, bunun bir çoxu ilə peşəkarlar məşğul olur. Nəticədə bu sahəyə media prinsipləri gəlir. Bunları qapatmaq və hansısa lisenziya tətbiq etmək gələcəkdə ciddi əngəllər yarada bilər. Hesab edirəm ki, qanunun üzərində media hüququ üzrə mütəxəssislər işləməlidir. Söhbət məlumat və ifadə azadlığı ilə bağlı qanundan getdiyi üçün üzərində ciddi şəkildə işlənməlidir. Elə etməliyik ki, sabah ortaya mükəmməl bir qanun qoya bilək. Tələskənlik və cəmiyyətdən gələn mesajların nəzərə alınmaması media sistemimizə ciddi ziyan vura bilər. Həmçinin, ölkəmizin beynəlxalq imicinə zərər gətirər".

**Mətbuat Şurasının sədr müavini, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli isə "Şərq"ə açıqlamasında vurğulayıb ki, qanun layihəsinin müzakirəyə çıxarılmasında məqsəd odur ki, media ictimaiyyəti, ekspertlər, hüquqşünaslar baxsınlar.** Əgər ciddi boşluq varsa, öz təkliflərini versinlər. M.Ələsgərliyə görə, yeni qanun layihəsində müəyyən boşluqların olması istisna deyil və bunu inkar edən yoxdur: "Müzakirə şəraitini Milli Məclis özü yaradıb. Qanun layihə halını alıb, parlamentə gələnə qədər ilkin formatda bir neçə müzakirəsi aparılıb. Mən də müzakirələrdə iştirak etmişəm. İstənilən adam internetdə axtarış versə, təqribən 6-7 ay müddətində layihənin müzakirələrini görə bilər. Həm çap mətbuatı, həm də onlayn media strukturlarının rəhbərləri ilə ayrıca görüşlər keçirilib. İndi də parlamentdə şərait yaradılıb ki, ictimaiyyət nümayəndələri qanun layihəsi ilə tanış olsunlar, fikir və rəylərini bildirsinlər. Nəzərə alaq ki, qanun hələ layihə formasında və müzakirə mərhələsindədir. Yəni zəruri boşluqlar olarsa, onları düzəltmək, dəyişiklik etmək mümkündür. Gedişat göstərir ki, təkliflər nəzərə alınır. Bu qədər şəraitin içərisində ortalığa çıxan iradlara baxanda görürsən ki, ancaq tənqid var, real, ağlabatan təklif yoxdur. Yəni ortalıqda sadəcə tənqidi danışanlar var. Əgər kiminsə təklifi varsa, qanun layihəsinin daha yaxşı olmasını istəyirsə, onun üçün hər cür imkan yaradılıb. Qanun layihəsini bəri başdan tənqid edənlərin bəziləri özləri etiraf edirlər ki, hələ mətnlə tanış olmayıblar. Qanun layihəsini oxumayıbsa, nəyi tənqid edir?! Bu detalın özü göstərir ki, tənqidçilərin çoxları konseptual tənqidlə çıxış etmirlər. Sadəcə tənqid xatirinə tənqid edirlər".

**Ekspertin fikrincə, iradların çoxu aidiyyəti üzrə deyil və lazımsızdır:** "Media reyestrinin aparılmasını tənqid edirlər. Vurğulayım ki, media reyestri Azərbaycanda ilk dəfə tətbiq olunmur. İndiyə qədər onsuz da çap media qurumları Ədliyyə Nazirliyində uçota götürülürdü. Onlayn media qurumları da vergi xidmətlərində uçota alınırdı. Qanun layihəsində göstərilir ki, artıq bu proses vahidləşmiş qaydada həyata keçiriləcək. Bu da yeni imkanların yaranması deməkdir. KİV-lərin dəqiq sayı məlum olmalıdır ki, müəyyən inkişaf proqramları hazırlansın. Əgər media reyestri ilk dəfə tətbiq olunsaydı, danışmağa yer olardı. Media reyestri illərdir aparılır, sadəcə burada bu işlə məşğul olan qurumun adı dəyişdirilir və mərkəzləşdirilmiş formaya keçilir. Tənqidlərin bunun üzərində qurulmasını başa düşmək olmur. Hiss olunur ki, hansısa şəxsi maraqlarına görə, yaxud gündəmə gəlmək və müəyyən qrupa xoş görünmək üçün bu cür hərəkət edirlər. Təbii, bu fikrim hər kəsə aid deyil. Normal, mahiyyəti üzrə təkliflər verənlər, konkret maddələri göstərərək, onların düzəldilməsi istiqamətində öz təkliflərini irəli sürənlər var. Son olaraq qeyd edim ki, layihədə müəyyən korrekturalara və terminologiya üzərində işləməyə ehtiyac var. Amma bu məqamlar layihənin ümumi mahiyyətinə xələl gətirmir. Layihə medianın inkişafını stimullaşdıran bir çox yeniliklərlə zəngindir".

# Ölkədə seçki havası var

## Məhərrəm Zülfüqarlı: "Prezidentin bu barədə sərəncamı olarsa, fevralın sonu, mart ayında seçkilər keçirilə bilər"



**Milli Məclisin boş qalan yerləri üçün seçkilər keçiriləcək. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib. O qeyd edib ki, Milli Məclisdə boş qalan yerlərə seçkilərin keçirilməsi, yəqin ki, yaxın zamanlarda mümkün olacaq: "Azərbaycan üçün taleyüklü məsələlər həll olunmalıdır. Hesab edirəm ki, məsələ öz həllini tapacaq. Demək olar ki, bütün dairələr üzrə işlər tamamlanıb. Ancaq bəzi dairələrdə toplantı keçirilib, təsdiqlənmə qalıb".**

MSK sədri xatırladıb ki, sahə seçki komissiyalarının formalaşdırılmasını dairə seçki komissiyaları reallaşdırır:

M.Pənahov diqqətə çatdırıb ki, bu prosesi daim nəzarətdə saxlayırlar.

Qeyd edək ki, parlamentdə indiki mövqedə beş deputat yeri boşdur. Mərkəzi Seçki Komissiyası Milli Məclisdə seçki vaxtı ümumilikdə 4 dairədə keçirilmiş seçki nəticələrini ləğv edib.

- 80 saylı İmişli-Beyləqan seçki dairəsi - lider namizəd Çingiz Qənizadə
- 74 saylı Lənkəran kənd seçki dairəsi - lider namizəd Hadı Rəcəbli
- 35 saylı Xətai üçüncü seçki dairəsi - lider namizəd Rauf Arifoğlu
- 33 saylı Xətai birinci seçki dairəsi - lider namizəd Hüseynbala Mirələmov.

Eyni zamanda 116 saylı Qəbələ seçki dairəsindən seçilmiş Fəttah Heydərov avqustun 4-ü 2020-ci ildə dünyasını dəyişib. Bu səbəbdən onun da yeri boşdur.

**Azərbaycan Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı "Şərq"ə açıqlamasında qeyd edib ki, bu informasiya MSK sədri Məzahir Pənahovun fikri əsasında yayılıb**: "Bilirik ki, seçkilər cəmiyyətdə həmişə həssas məsələlərdən biri hesab olunub. Müəyyən səbəblərdən dolayı 5 dairədə yerlər boşdur. Ona görə də o dairələrdə seçki məntəqələrində seçkilər keçirilməsi zəruridir. Lakin məsələ ölkə başçısının müstəsna səlahiyyətindədir. Seçkilərin vaxtını prezident müəyyənləşdirir və MSK da prosesi təşkil etməlidir. Ehtimallar hər zaman var. MSK sədri də bunu səsləndirib".

**M.Zülfüqarlı bunu da diqqətə çatdırıb ki, hər il büdcədən MSK-ya pul ayrılır:** "Dairə seçki komissiyasının üzvləri də daimi əmək haqqı ilə təmin olunur. Yaxın həftələrdə seçkilərin keçirilməsi real deyil. Ehtimal ki, gələn ilin əvvəllərində prezidentin bu barədə sərəncamı olarsa, fevralın sonu, mart ayında seçkilər keçirilə bilər. Təbii ki, bu da bir ehtimaldır. Prezidentin bilavasitə səlahiyyətində olduğuna görə, zamanı yalnız ölkə başçısı müəyyən edə bilər. Ona görə də mütəxəssislər, bu işlə məşğul olan insanlar öz ehtimallarını dilə gətirirlər. Hətta bəzilərinin fikrincə, yenidən parlament seçkiləri də, növbədənkənar seçkilərin də keçirilmə ehtimalı var. Amma hər halda seçici kimi arzu edərdik ki, 125 deputatın hər birinin yeri dolsun.

Çünki 5 dairədə artıq neçə illərdir ki, seçicilər deputatsızdır. Aidiyyəti qurumlar bu işin daha da sürətləndirilməsində maraqlı olmalıdır".

**Sücayət Mehti**

# "Qarabağ" "Marsel"lə qarşılaşacaq

## Konfrans Liqasında pley-off cütləri bəlli olub




**Dünən Konfrans Liqasında pley-offun püşkü atılıb.**

**Apasport.az saytının məlumatına görə, tədbirdə qitənin üçüncü dərəcəli klub turnirində mübarizəni davam etdirən klublar 8 cüt təşkil edib.**

Qrup qaliblərinin birbaşa 1/8 finala yüksəldiyi Konfrans Liqasında pley-offda 16 klub qüvvəsini sınayacaq.

Lakin bu komandalardan biri hələ dəqiqləşməyib. Ləğv edilən "Tottenhem" - "Renn" görüşünün taleyi bilindikdən sonra İngiltərə təmsilçisinin, yoxsa "Vitess"in qrup ikinci olacağı dəqiqləşməyib.

Pley-offda qrup ikinciləri Avropa Liqasının üçüncü yer sahibləri ilə görüşəcək. İlk matç sonuncuların meydanında baş tutacaq.

**Konfrans Liqası**
**Pley-off**

"Marsel" (Fransa) - **"Qarabağ" (Azərbaycan)**
PSV (Niderland) - "Makkabi" (Təl-Əviv, İsrail)
"Fənərbaxça" (Türkiyə) - "Slaviya" (Çexiya)
"Midtülland" (Danimarka) - PAOK (Yunanıstan)
"Lester" (İngiltərə) - "Randers" (Danimarka)
"Seltik" (Şotlandiya) - "Bodo Qlimt" (Norveç)
"Sparta" (Çexiya) - "Partizan" (Serbiya)
"Rapid" (Avstriya) - "Vitess" (Niderland)/"Tottenhem" (İngiltərə)

*Qeyd edək ki, pley-offun ilk oyunları gələn il fevralın 17-də, cavab matçları 24-də keçiriləcək. 1/8 finalın püşkü fevralın 25-də atılacaq.*



# Rusiya 4 ildən sonra da Qarabağda qalmağa çalışacaq

## Əgər bu mümkün olmasa, daha böyük siyasi qazanc əldə etmək istəyəcək

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin erməni jurnalistlərin rus sülhməramlılarının 5 ildən sonra Qarabağda qalma müddətinin uzadılıb-uzadılmayacağı haqda sualına cavab verib. Səfir bildirib ki, "hər şeyi həyat və zaman göstərəcək".**

Ekspertlərin qənaətincə, səfirin bu cür cavabı erməni ictimai rəyinə ünvanlanmaqla yanaşı, həm də Moskvanın yanaşmasını əks etdirir. Qarabağdakı rus sülhməramlılarının gələcək fəaliyyəti müəmmalı olaraq qalır. 10 noyabr razılaşmasına görə tərəflərdən biri istəmədiyi halda sülhməramlılar bölgəni tərk etməlidir. Ruslar isə çıxmaq istəmir və separatçılara dəstəyin məqsədi budur. Ekspertlərin qənaətincə, 5 illik vaxt bitdikcə Moskva üçün Qarabağda Ermənistanın yox, separatçıların mövcudluğu prioritet olacaq.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Kopırkinin açıqlaması təsdiq edir ki, Rusiya üçün gələcək müəmmalıdır.** Çünki Azərbaycanın 5 il sonra sülhməramlıların qalması üçün müraciət etməyəcəyi bəllidir. Analitikin fikrincə, indi Bakı da, Moskva da Qarabağı sonraya saxlayıb: "Moskva kommunikasiyanın açılmasını, Bakı isə sərhədin müəyyən edilməsi və Zəngəzur dəhlizinin işə düşməsini cari hədəf olaraq görür. Xüsusilə sərhəd məsələsinin həlli Qarabağda da əlimizi gücləndirə bilər. Lakin həm Moskva, həm Bakının Qarabağla bağlı planları var. Rusiya 4 ildən sonra da qalmağa çalışacaq və çıxmaq məcburiyyətində qalsa, bundan daha böyük siyasi qazanc üçün istifadə etmək istəyəcək. Azərbaycan 2025-ci ilə qədər Qarabağla bağlı üç mümkün istiqamətdə işləyə bilər. Birincisi, oradakı erməniləri Azərbaycan bayrağı altında yaşamağa razı salmaq lazımdır. Sosial-iqtisadi çətinlik buna imkan yaradır, lakin olduqca çətin məsələdir. Xüsusilə həm ermənilərin, həm də rusların "birgəyaşayış" perspektivini baltalamağa çalışması fonunda bir qədər mürəkkəbdir".

**A.Nərimanlı qeyd edib ki, Rusiyadan bölgədə uzunmüddətli qalma fürsətinin yaradılması qarşılığında Qarabağdakı mövcudluğuna son qoymaq tələb oluna bilər:** "Azərbaycan-Ermənistan sərhədində belə bir fürsət verilə və bununla problemi daxildən sərhədə köçürmək ola bilər. Yaxud Türkiyənin hərbi mövcudluğunu artırmaq, ruslara qarşı balansı formalaşdırmaq və 2025-ci ilə qədər separatçı-terrorçu rejimin ləğv edilməsinə, idarəetmənin bərpasına çalışmaq lazımdır. Sərhədin müəyyən edilməsinin aktual olduğu vaxt Türkiyənin Monitorinq Mərkəzində türk hərbçilərini aktivləşdirməsi Bakı-Ankara masasındakı planlardan biri hesab oluna bilər. Bizi çətin və ağrılı yol gözləyir. Burada həlledici amil Bakının siyasi iradəsidir".

**İsmayıl Qocayev**

# Şəhərin 40 faizi tikilib qurtarıb



## Normaların müəyyənləşməsi çox yaxşıdır, amma gecikiblər

**"Normalara cavab verməyən binaları nə edəcəklər? Deyəcəklər ki, onlar normalar müəyyənləşməmiş tikilib?"**

Mələhət Rzayeva

**Azərbaycanda yaşayış binaları ilə bağlı yeni qaydalar müəyyən olunur. Trend-in məlumatına görə, bu barədə məsələ Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının təsdiqlədiyi "Yaşayış binaları. Layihələndirmə normaları"nda öz əksini tapıb. Belə ki, damda radiorele dirəklərinin və qüllələrinin quraşdırılması qadağan edilir. Azərbaycanda yaşayış binalarının damında verilişlərin kollektiv qəbulu üçün televiziya anteni və radio verilişi şəbəkə dirəyinin quraşdırılması nəzərdə tutulmalıdır. Azərbaycanda yaşayış binalarında balkonların layihələndirilməsi üçün də əlverişsiz hallar müəyyən edilir.**

Normalarda qeyd olunur ki, Azərbaycan Respublikasının iqlim şəraitində yaşayış binalarında lociya və balkonların layihələndirilməsi zəruridir. Bu zaman lociya və balkonların layihələndirilməsi üçün əlverişsiz şərait və hallar nəzərə alınmalıdır. Lociya və balkonların layihələndirilməsi üçün əlverişsiz hallar - nəqliyyat magistrallarından və ya sənaye ərazilərindən gələn səs-küyün səviyyəsi yaşayış binalarının fasadının qarşısında 75 dB və daha artıq olması və yay aylarında 15 gün və daha artıq müddətə havadakı tozun miqdarı 1,5 mq/m3 və daha artıq olması hesab ediləcək. Mənzillərdə yataq otaqları digər otağa keçid kimi layihələndirilməməlidir. Normalara əsasən mənzillərdə otaqların sahəsi - birotaqlı mənzildə ümumi otaq - 15 m2-dən; birotaqlı mənzillərin girişində qarderob - 2,5 m2-dən; iki və daha çox otaqlı mənzillərdə ümumi otaq - 16 m2-dən; yataq otağı - 8 m2 (iki adama - 10 m2-dən); mətbəx - 8 m2-dən; mətbəx-yemək otağında mətbəx zonası - 6 m2-dən az olmamalıdır. Birotaqlı mənzillərdə sahəsi 5 m2-dən az olmayan taxça-mətbəxin layihələndirilməsinə yol verilir. Mansarda mərtəbəsində (və ya maili xarici divarı olan mərtəbədə) yataq otağı və mətbəxin sahəsinin 7 m2 -dən az olmamaqla qəbul edilməsinə yol verilir, bu halda ümumi yaşayış otağının sahəsi 16 m2-dən az olmamalıdır. Yaşayış otaqlarının və mətbəxin hündürlüyü 2,7 m-dən az olmamalıdır. Mansarda mərtəbələrinin yüksək hissəsində hündürlüyü (döşəmədən tavanadək) 2,7 m-dən az olmamalıdır. Mənzildaxili dəhlizlərin, holların, antresolların (və onların alt hissələrinin) hündürlükləri insanların hərəkətinin təhlükəsizliyini təmin etmək şərtilə 2,1 m-dən az olmamalıdır.

Normalar bunlardır. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təyin etdiyi normalar yaşayış binalarının tikintisində nəyi dəyişəcək? Və ümumiyyətlə, dəyişə biləcəkmi? Məlumdur ki, MTK-lar yaşayış binalarında otaqların heç dəqiq kvadrat metrini təyin etmir. Ümumi yaşayış sahəsini satışa çıxarır. Alıcı mənzildə neçə otaq, hansı ölçüdə mətbəx və ya dəhliz olacağını özü sonradan müəyyənləşdirir. Ümumi yaşayış sahəsini otaq, mətbəx, dəhliz "arasında" bölüşdürür. Bəzən eyvana ehtiyac görməyib, onu ya mətbəx, ya da yataq otağına "çevirirlər". Çünki yeni tikililərdə *(ümumiyyətlə mənzil bazarında bahalıqdır - M.R.)* mənzillərin çox baha qiymətə satışa çıxarılmasıdır. Bunun da əsas səbəbi bina tikintisi üçün torpaq sahələrinə təyin edilən yüksək məbləğdir. Sahibkar da "ödədiyim pulu geri qazanmalıyam, ya yox" prinsipi ilə hərəkət edir. Qınanmalı da deyil. Ona görə də yaşayış binalarımız hazırkı şəkildədir: bir-birinə bitişik, "can-qardaş" stilində. Uzaqdan-uzağa qohum olmağa gərək yoxdur. Bir eyvandan digərinə hoppanmaqla, ya da bir pəncərədən digərinə boylanmaqla qohum olmaq mümkündür. Əsas sosial məsafəni "pozan" binalardır, deyə də bilərik.

**Bələdiyyələrin Fəaliyyətinin Təbliği İctimai Birliyinin sədri Vüqar Tofiqli "Şərq"ə açıqlamasında normativlərin müəyyən edilməsinin gecikmiş qərar olduğunu dedi:**

- Normaların müəyyənləşməsi yaxşıdır. Amma bunun üçün çox gecikiblər. Paytaxtda əsas tikintilər artıq başa çatıb. Şəhərin 40 faizi tikilib qurtarıb. Normalara cavab verməyən binaları nə edəcəklər? Deyəcəklər ki, onlar normalar müəyyənləşməmiş tikilib? Məgər o binalar tikilərkən heç bir normativ qayda, standart yox idi? Kim necə istəyirdi bina inşa edə bilərdi?! Ediblər onsuz da. Cinayət törədiblər, üstünü də örtbasdır ediblər. Standartlara cavab verməyən, tikinti normalarının kobud pozulduğu yaşayış binaları "n" qədərdi. Bunlarsa hələ indi normalar müəyyənləşdirir. Başa düşürəm, perspektiv üçün yaxşıdı. Amma bütün hallarda, çox gecdir. Standartlar məqamında, zamanında qəbul edilməliydi.



# 3 erməni hakeri kibercinayətkarlıq edib

## Səbuhi Abbasov: "Təxribatlarla bağlı beynəlxalq birliyə məlumatı düzgün şəkildə çatdırmalıdır"

**Azərbaycanın Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti kibercinayətkarlığa qarşı mübarizə aparan beynəlxalq təşkilatlara 3 erməni hakeri ilə bağlı müraciət edib.** Xidməti idarənin rəisi Tural Məmmədov deyib ki, ötən ilin iyununda Fuad Musayev adlı şəxsin adından insanlara məktublar daxil olub. Araşdırma nəticəsində məlum olub ki, bu hücumun arxasında Ermənistana məxsus "IT Security LLC" (itsec.am) şirkəti dayanır. Bu şirkət vasitəsi ilə Armen Qnuni, İran ermənisi Ara Babaxani, Aşot Mnatsakanyanın bu hücumu Fuad Musayev adı altında həyata keçiriblər.

"Xəmirləri" terror və təxribatla yoğrulan ermənilər indi də kibercinayətə əl atıblar. Öz çirkin əməllərinə çatmaqdan ötrü beynəlxalq normaları pozaraq dünyada asayişə zərər vurmaqdan da çəkinmirlər. 44 günlük Vətən savaşında hərb meydanından qaçan ermənilər monitor arxasına keçərək kibercinayətlər törədirlər. Beynəlxalq təşkilatlar ermənilərin təxribat əməllərinə göz yumaraq terroru, kibercinayəti alovlandırır. Aidiyyəti beynəlxalq institutlar vaxtında tədbir görməsələr, dünya ictimaiyyəti bunun ağır nəticələrini çəkə bilər.

*Məsələ ilə bağlı "Şərq"ə danışan internet-media eksperti Səbuhi Abbasov bildirib ki, belə təxribatlar kiber sənayesinin çökməyinə gətirib çıxarır:* "Kibercinayət sahəsində ermənilər çox ciddi şəkildə təşkilatlanıblar. Onların bu sahə üzrə formalaşan qruplaşmaları son 10 ildə Azərbaycana qarşı çoxlu təxribatlar həyata keçiriblər. Bu tipli hücumlar bu gün də davam edir. Ermənilərin kiber təxribatı beynəlxalq birliyə təhdiddir. Azərbaycana qarşı 44 günlük savaşdan sonra hücumlar daha total şəkildə aparılıb. Kibercinayətkarlıqla bağlı beynəlxalq təşkilatların, Avropa Şurasının qətnamələri var. Azərbaycan hökuməti dəfələrlə beynəlxalq qurumlara müraciət edib, lakin qurumlar Ermənistana ciddi sanksiyalar tətbiq etməyiblər. Əgər ciddi sanksiyalar tətbiq olunsaydı, bu kimi kibercinayətlərin davamlı olmasının qarşısını alardı. Aiddiyyəti qurumlar təxribatlarla bağlı beynəlxalq birliyə məlumatı düzgün şəkildə çatdırmalıdır. Beynəlxalq birliyə vuracağı zərər açıq şəkildə göstərilməlidir".

**Xanlar ƏLİBƏY**

# "Pasportlar haqqında" qanuna dəyişiklik edilir

## Azərbaycanda müəyyən şəxslərə ömürlük diplomatik pasport veriləcək



**"Pasportlar haqqında" qanuna dəyişiklik edilir. Dəyişikliklə diplomatik pasport veriləcək şəxslərin siyahısı genişləndirilir.**

Qanun layihəsi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin toplantısında müzakirə edildikdən sonra plenar iclasa tövsiyə olunub.

Layihəyə əsasən, Xarici İşlər Nazirliyi tərəfindən öz vəzifələrini icra etməyə başladıqdan ən azı 15 gün keçənədək Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə diplomatik pasport veriləcək. Həmçinin, xaricə 3 aydan artıq müddətə ezam olunan, yuxarıda sadalanan şəxslərlə birlikdə gedən arvadına (ərinə), 18 yaşına çatmamış uşaqlarına, 18 yaşına çatmış əmək qabiliyyəti olmayan övladlarına və 18 yaşına çatmış ərdə olmayan qızına da diplomatik pasport veriləcək.

*Təklif edilən digər dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinə və vitse-prezidentlərinə diplomatik pasport ömürlük veriləcək.*

# Kəlbəcər və Zəngilan şəhərlərinin Baş Planlarının hazırlanmasına başlanılır



**Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Ərazi Tikinti-Planlaşdırma Mərkəzi Kəlbəcər və Zəngilan şəhərlərinin Baş Planlarının hazırlanması işləri üzrə ilkin məlumatların toplanılması, şəhərətrafı ərazinin (rayonun) planının, istinad planının və ərazinin kompleks qiymətləndirmə sxeminin, strateji ekoloji qiymətləndirmə hesabatının, mühəndis hazırlığı sxeminin, mühəndis kommunikasiya sistemləri sxemlərinin, nəqliyyat və sosial obyektlərin yerləşmə sxeminin hazırlanması, tərcümə xidmətlərinin göstərilməsi və kompleks mühəndis-geodeziya işləri ilə bağlı elan etdiyi 2 açıq tenderə yekun vurub.**

"Report" dövlət satınalmalarının vahid internet portalına istinadən xəbər verir ki, hər iki tenderin qalibi Komitənin Bakı Dövlət Layihə İnstitutudur.

İnstituta müvafiq olaraq 226 min manat və 214 min manat, ümumilikdə isə 440 min manat ödəniləcək.

# Dialoq çağırışı...

## Saakaşvili hakimiyyətə əl uzatmaq məcburiyyətində qaldı

**Gürcüstanın eks-prezidenti Mixail Saakaşvili indiki prezdent Salome Zurabişvilini və bundan öncəki rəhbəri Q.Marqvelaşvilini Qori hospitalına görüşə dəvət edib. Saakaşvili bildirib ki, ölkədə sülhün təminatı danışıqlardan keçir: "Mən sizin çıxışınızı diqqətlə dinləmişəm və təkcə üçüncü prezident kimi deyil, həm də bu ölkənin gələcəyini düşünən vətənpərvər kimi bu məsələ ilə bağlı mövqeyimi bildirmək istəyirəm. Məncə, hazırda ən yaxşı format Cənubi Afrika formatı və modeldir. Hamımız "dəyirmi masa" arxasında əyləşib vətənimizin keçmişi və ən əsası Avro-Atlantik demokratik gələcəyi haqqında birlikdə danışmalıyıq və xalqımızın ləyaqətli və təhlükəsiz həyat şəraitini müzakirə etməliyik".**

Sabiq rəhbər qeyd edib ki, bu cür dialoqun alternativi yoxdur: "Azlığın çoxluğu sıxışdırmaq cəhdi, bu azlıq nə qədər milyardlarla, cəza dəstələri ilə təchiz olunsa da, böyük vətəndaş qarşıdurması təhlükəsi yaradır və ola bilsin, buna yönəlib. Ölkəmiz üçün fəlakətli olan bu ən pis nəticə bütün gürcü vətənpərvərləri üçün fəlakət, yeganə düşmənimiz Rusiya üçün isə vətənimizin gələcəyi üçün arzuolunan yeganə işdir". Saakaşvili əlavə edib ki, Gürcüstanın sülhə, inkişafa və tam bərpaya ehtiyacı var: "Vaxt çox qısadır və bir dəqiqə belə itirmək olmaz. Ona görə də mən Gürcüstan cəmiyyətindən, siyasi qüvvələrdən, qeyri-hökumət sektorundan, mediadan, beynəlxalq ictimaiyyətdən xahiş edirəm ki, barışıq prosesini və mənim təklif etdiyim formatı dəstəkləsinlər". Xatırladaq ki, eks-prezidentin bundan öncəki bəyanatları kifayət qədər sərt ritorikada idi. Saakaşvili bütün açıqlamalarında hökuməti sərt tənqid edir və tərəfdarlarını kəskin mübarizəyə səsləyirdi. Hətta bir müddət əvvəl Gürcüstanı tərk etmək istəyənlərə çağırış edərək onları səbirli olmağa və hakimiyyətə qarşı mübarizəyə səsləmişdi. Bildirmişdi ki, uzağı, 2-3 aya hər şey dəyişəcək. Lakin sabiq prezidentin sonuncu müraciəti olduqca yumşaq və barışdırıcıdır.



**Məhbus eks-prezident bütün müxalifəti ayağa qaldıra bilmədiyinə görə taktikasını dəyişir**

**Saakaşvilinin birdən-birə mövqe dəyişməsini "Şərq"ə təhlil edən politoloq Qabil Hüseynli deyib ki, həbsxana bəzi insanları ruhən sarsıdır, hətta "sındırır". Lakin analitik hesab edir ki, Saakaşvilidə "sınma" prosesi getmir, sadəcə olaraq keçmiş rəhbər ölkə müxalifətinin və tərəfdarlarının nəyə qadir olduğunu görməyə başlayıb:** "Saakaşvili hadisələrə daha praqmatik yanaşma sərgiləyir. ABŞ Prezidenti Co Baydenin Gürcüstanı demokratik ölkə sayaraq, sammitə dəvət etməsinə baxmayaraq, ölkə "boz kardinalı" - Bidzina İvanaşvilinin repressiv rejimi altında idarə olunur. Saakaşvilinin timsalında gördük Gürcüstan həbsxanaları hər mənada sovet dövrünü xatırladır. Avropa standartlarına heç cür uyğunlaşdırılmayıb. Keçmiş prezident ölkə müxalifətini ayağa qaldırmağa çalışsa da, indiki halda bunun qeyri-mümkünlüyünü gördü və öz taktikasını dəyişdi. Müxalifət yekdil deyil və seçki saxtakarlığına qarşı mübarizə aparmaq istəmir. Mitinqlər, etiraz aksiyaları, kütləvi çıxışlar demək olar ki, effektsizdir. Digər səbəb isə odur ki, Saakaşvili Qərbdən gözlədiyi dəstəyi ala bilməyəcəyinin fərqindədir. Bir-iki quru bəyanatı çıxmaq şərtilə ilə ABŞ və Avropa ölkələri, beynəlxalq təşkilatları səssiz qaldılar. O cümlədən, ölkə prezidenti S.Zurabişvili Saakaşviliyə qarşı kifayət qədər humanist mövqe sərgilədi. Sabiq prezident Marqvelaşvili də Saakaşvilini müdafiə edən bəyanatlarla çıxış etdi. Bütün bunlar ölkədə əhval-ruhiyyəyə, həmçinin Saakaşvilinin mövqeyinə ciddi təsir göstərdi. Keçmiş prezident sosial bazasının əvvəlki kimi olmadığının fərqindədir. Ona görə də hakimiyyətlə dialoq yolunu tutmağı daha məqbul sayır".

**İsmayıl Qocayev**



# ABŞ-ın "düşük" demokratiya sammiti

**ABŞ dekabrın 9-10-da onlayn formatda "Demokratiya sammiti" təşkil edib. Keçirilən sammit dünya ölkələrində bir sıra suallar yaradıb. Dəvət olunan dövlətlər sırasında demokratik idarəçiliyi şübhələr doğuran Anqola, Botsvana, Namibiya, Zambiya, Fici, Marşal adaları, Vanuatu, Nepal, Barbados, Panama, Surinam və s. var idi.**

MDB məkanından Bayden yalnız Ermənistanı, Moldovanı, Ukraynanı və Gürcüstanı "Demokratiya zirvəsi"nə çağırıb. Azərbaycan, Türkiyə, Rusiya, Macarıstan isə sammitə dəvət edilməyənlər siyahısında yer alıb.

**Azərbaycanın sammitdən kənar qalmasını "Şərq"ə dəyərləndirən politoloq Tofiq Abbasov bildirib ki, demokratiya çox həssas prosesdir:**

"Əvvəli olan, sonu qeyri-mövcud sonsuzluqdur. Demokratiyanı ağaca bənzətsək, gərək o, milli zəmində yetişsin. Onu bir gündə süni surətdə inkubator rejimi ilə həll etmək olmaz. Amerika dünyanı inandırmağa çalışır ki, guya, demokratiyanın beşiyində əyləşib. ABŞ özü barbarlıq dövründə bir neçə etapdan keçib. Orada qanlar tökülüb, vətəndaş savaşı, şimalla cənub müharibəsi, milli zəmində olan qarşıdurmalar və s. hadisələr baş verib. Onların qaradərililəri necə amansızcasına qətlə yetirdiklərinə şahid olduq. Sonra da "abırsızca" demokratiyadan danışırlar. Ermənistanın daxilindəki "adamyeyənlər"in nə işlə məşğul olduğunu görmürlərmi? Ermənistan hansı davranışına görə demokratiya ilə uzlaşır?!"

**Tofiq Abbasov: "Bəlli olmayan meyarlarla demokratiyanın olub-olmadığı qənaətinə gəlirlər"**

**Politoloqun sözlərinə görə, "sirk" tamaşasında iştirak etmədiyimiz üçün sevinməliyik:** "Sirk"ə qatılanlar da ABŞ-ın bu "düşük" təşəbbüsünə dəstək verirlər. Keçirilən sammit çox biabırçı tədbirdir. Bəlli olmayan meyarlarla demokratiyanın olub-olmadığı qənaətinə gəlirlər. Sözün əsl mənasında proses absurddur. Qeyd etdiyimiz kimi, demokratiya milli zəmində yaranır. Hər bir islam dövlətinin özünəməxsus demokratiyası var. Qərb bunu bilərəkdən inkar edir. Səbəb isə müsəlman dövlətlərini dağıtmaq, istismar etməkdir. Belə olan halda "qondarma" sammitdən uzaq durmaq ən düzgün seçimdir. Hesab edirəm ki, indiki məqamda Azərbaycan bəxti gətirən ölkələrdəndir".

**Sücayət Mehti**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

Məlahət Rzayeva

# Qarabağ iqtisadi rayonu qısa zamanda dirçələcək

## Artıq bütün işlər dövlət nəzarəti orqanlarının sürətli çalışmasından asılıdır

**Qələbə ilə başa çatan Vətən müharibəsi xalqımıza qürur hissi, ləyaqət, baş ucalığı, alın açıqlığı ilə yanaşı həm də geniş iqtisadi imkanlar qazandırıb. Doğrudur, tarixi həqiqətin bərpası, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan yurdlarımız, erməni separatçılarının xalqımıza qarşı soyqırım aktlarının Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sarsılmaz iradəsi, Ordumuzun şücaəti, əsgərlərimizin igidliyi sayəsində son qoyulması cənnət Qarabağın əzəli sakinlərinin yurd yerlərinə qayıdışı müqabilində iqtisadi imkanlar bəlkə də kiçik görünə bilər.**

Lakin hər bir dövlətin ümdə amalı ölkənin rufahı, vətəndaşların həyat şəraitinin yaxşılaşdırılmasıdırsa, bunun üçün başlıca şərt geniş iqtisadi imkanlara malik olmaqdır. Azərbaycan zatən hər tərəfli iqtisadi resurslara malik ölkədir. Lakin Qarabağ kimi münbit torpağı və iqtisadi inkişafa töhfə verə biləcək resurslarla zəngin olması əlavə və çox böyük üstünlük qazandırır. Qalır, bu imkanlardan səmərəli istifadə etmək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında sərəncam imzalanması məhz bu məqsədə yönəlib. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının Ermənistanın işğalından azad edilən ərazilərinin bərpası, milli iqtisadiyyata sürətli inteqrasiyası, dayanıqlı inkişafının təmin olunması, orada ən müasir infrastrukturun qurulması, mədəni-tarixi abidələrin bərpası və layiqli yaşayış şəraitinin yaradılması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu çərçivədə icra olunan layihələr həmin ərazilərin qısa müddət ərzində sülh və əməkdaşlıq bölgəsinə çevrilməsində və iqtisadi inkişafında mühüm rol oynayacaq. Sözügedən ərazilərdə zəngin resurs və infrastruktur potensialından səmərəli istifadə, dövlət?özəl sektor tərəfdaşlığı və ən əlverişli biznes mühiti əsasında iqtisadi fəaliyyətin canlandırılması və dayanıqlı məskunlaşmanın təmin olunması ölkənin uzunmüddətli inkişaf prioritetləri ilə vəhdətdə olan tədbirlərlə dəstəklənməlidir. Daha sonra Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndi rəhbər tutularaq, işğaldan azad edilmiş ərazilərdə iqtisadi canlanmanın sürətləndirilməsi və investisiya cəlbediciliyinin artırılması, müasir və effektiv istehsal, ticarət və xidmət infrastrukturunun yaradılması, innovativ texnologiyaların tətbiqi, sənaye potensialının reallaşdırılması, optimal güzəştlərin və stimullaşdırıcı mexanizmlərin hazırlanması və sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şərait yaradılması məqsədilə qərara alınır: Azərbaycan Respublikasının Nazirlər Kabineti işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi, işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi, işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlər (elektrik enerjisi, təbii qaz və su istehlakı) üzrə güzəştlərin müəyyən edilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsi, habelə əmək miqrasiyası kvotasının müəyyən edilməsi və iş icazələrinin verilməsi prosedurunun təkmilləşdirilməsi, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarların maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi və bu istiqamətdə zəruri dövlət dəstəyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə ekoloji təmiz texnologiyaları tətbiq edən, "yaşıl artım" yaradan və bərpa olunan enerji mənbələrindən istifadə edən investorların dəstəklənməsi, işğaldan azad edilmiş ərazilərdə yaşayış massivlərinin inşası ilə bağlı dövlət özəl sektor tərəfdaşlığının inkişafı naminə Sərəncamdan irəli gələn məsələləri həll etsin. Həmçinin göstərilən istiqamətlərdə təklifləri üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.



İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın təmin edilməsi məqsədilə görüləcək işlər Sərəncamda əksini tapıb. Bu işlərin həyata keçməsi hansı halda mümkün ola bilər?

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, sərəncam sahibkarlıq subyektlərinin rahat, səmərəli fəaliyyəti üçün lazım olan bütün şərtləri əhatə edir:**

- Sərəncam həmişəki kimi qüsursuzdur, mükəmməldir. Sərəncamdan sonra bilirsiniz ki, müvafiq qərar da olmalıdır. Bu isə artıq asılıdır dövlət nəzarəti orqanlarının nə dərəcədə sürətlə çalışacağından. Nazirlər Kabinetinə sərəncamdan irəli gələn məsələlərlə bağlı təkliflərini 3 ay müddətində Prezidentə təqdim etmək tapşırılıb. Deməli, dövlətin aidiyyəti orqanları icra mexanizmi üzərində işləməlidirlər. Həm də sürətli icra mexanizmi. Məsələn, hazırda vergi ödəyicisi olan hansısa sahibkarlıq subyekti, biznes strukturları işğaldan azad edilmiş ərazilərə sərmayə qoymaq istəyirsə, bu işdə süni ləngimə olmamalıdır. Avtomatlaşdırılmış idarəetmə sistemi olmalıdır ki, biznes strukturları öz bizneslərini, sərmayələrini sürətli bir şəkildə, mümkün olduğu qədər qısa zamanda işğaldan azad edilmiş Qarabağ bölgəsinə köçürə bilsin. Bu keçidlər sürətlə və problemsiz həll edilməlidir. Dövlət orqanları texniki məsələlərdə yubanmalara yol verməməlidir. Kim biznes fəaliyyətinə başlamaq istəyirsə, ona "yaşıl işıq" yandırılmalıdır. Belə olduqda Qarabağ iqtisadi rayonu qısa zamanda dirçələcək, orda sahibkarlıq subyektləri də artacaq, əhalinin köçürülməsi də sürətlənəcək. Çünki əhali görəcək ki, Qarabağda rahat həyat və biznes şəraiti təmin edilir. Ölkəmizə, dövlətimizə də bu lazımdır.

***"Dövlət orqanları texniki məsələlərdə yubanmalara yol verməməlidir. Kim biznes fəaliyyətinə başlamaq istəyirsə, ona "yaşıl işıq" yandırılmalıdır"***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub



# Saxta demoqrafik rəqəmlər yaradırlar

## Rusiya Qarabağda özünə dayaq formalaşdırmaq istəyir

**Qarabağda sülhməramlıların müvəqqəti nəzarət zonasında "rus icması"nın yaradılmasına təşəbbüs göstərilib. Dekabrın 1-dən başlayaraq Xankəndi və ətrafında "slavyan əsilli" şəxslərin siyahıya alınmasına başlanıb.**

Rusiya Federal Təhlükəsizlik Xidmətinin Akademiyasının keçmiş məzunu Aleksandr Bordovun Qarabağdakı rus icmasına rəhbər seçilməsi ilə bağlı xəbərlər paylaşılıb. Bunu Siyahıyalmanı Azərbaycan ərazisində müvəqqəti yerləşmiş Rusiya silahlı qüvvələri təşkil edir.

Rəsmi Moskva açıq şəkildə göstərir ki, Azərbaycan maraqlarının əksinə xidmət etməyi hədəfləyib. Erməni separatçılarına isti münasibət göstərən Rusiya sülhməramlılarının rəhbər heyəti də sülh missiyasını bir kənara atıb qanunsuzluqla məşğul olduğunu aydın şəkildə göstərib. Rusiya sülhməramlılarının gün-gündən artan özbaşınalığının qarşısı alınmazsa, mənfi nəticələrin ortaya çıxacağı aşkardır.

**Məsələ ilə bağlı Azərbaycan Demokratik Partiyasının rəhbəri Sərdar Cəlaloğlu Rusiyanın əsas məqsədinin işğalçılıq olduğunu vurğulayıb:**

"Rusiyanın belə addım atmağında müəyyən səbəblər var. Şimal qonşumuz torpağa kök salıb. Buraları tərk edib getmək niyyəti yoxdur. Qarabağda özünə dayaq formalaşdırmaq istəyir. Açıq şəkildə desək, məqsədləri torpağı işğal etməkdir. Orada saxta demoqrafik rəqəmlər yaradaraq işğal planı qurur. Bəlkə də bölgədə heç bir rus da yaşamır".

**Xanlar ƏLİBƏY**

# Azərbaycan ərazilərini minalardan özü təmizləyəcək

## Ermənilər bu günə qədər beynəlxalq hüquq normalarını necə pozublarsa, bundan sonra da elə davam edəcəklər

**Xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında indiyə kimi Ermənistan tərəfindən təqdim olunan mina xəritələrinin dəqiqlik faizinin çox aşağı, təxminən 25 faiz olduğunu deyib. O, Ermənistan tərəfindən təqdim olunmuş yeni mina xəritələrinin hazırda mütəxəssislər tərəfindən təhlil edildiyini, bu iş üçün bəlli bir zaman lazım olduğunu və prosesin artan faciələrin qarşısını ala biləcəyini vurğulayıb.**

Maraqlıdır, rəsmi Bakı qarşı tərəfin təqdim etdiyi mina xəritələrinin yanlış çıxacağı təqdirdə nə kimi tədbirlər görəcək?

**Mövzunu "Şərq"ə dəyərləndirən ehtiyatda olan polkovnik Şair Ramaldanov bildirib ki, rəsmi İrəvanın bizə verdiyi mina xəritələrinin yanlış olmasında bir neçə səbəb ola bilər:**

"Xəritələri tərtib edən mütəxəssislərin peşəkarlıq səviyyəsi aşağı olub, ya da Ermənistan bizi qəsdən yanlış istiqamətləndirib. Bu xəritələr ola bilsin, 25-30 il əvvəl təmas xəttində tərtib edilən xəritələrdir".

*Ş.Ramaldanov Ermənistanın beynəlxalq təzyiqlər və çağırışların nəticəsində bizə mina xəritələrini təqdim etdiyini və bununla da bir növ "gözə kül üfürmək" taktikasını yürütdüyünü söyləyib:*

"Yəni biz öhdəmizə düşən işi yerinə yetirdik, hər kəs də bunu gördü. Ermənistanın indiyə kimi törətmiş olduğu əməllərə görə Azərbaycan tərəfi onun bələ bir addım atmasına heç də təəccüblənməməlidir. Onlar bu günə qədər beynəlxalq hüquq normalarını necə pozublarsa, bundan sonra da elə davam edəcəklər. Bu saxta xəritələr də növbəti erməni oyununun davamıdır".



**Polkovnik rəsmi İrəvanın verdiyi mina xəritələrindən hazırda məqsədyönlü şəkildə istifadə edə bilmədiyimizi diqqətə çatdırıb və 44 günlük müharibəyə diqqət çəkib:**

"İkinci Qarabağ savaşında ermənilər döyüş ərazilərindən geri çəkilən zaman böyük əraziləri minalayıblar. Bu zaman həmin yerlərin mina xəritələrini də tərtib etməyiblər. Çünki savaş davam etdiyi müddətdə, bu, çətin bir prosesdir. Düşünürəm ki, Azərbaycan tərəfi sonda mina sahələrini saxta xəritələrə baxmadan özü təmizləyəcək".

**Günəş Mərd**



# "Son 150 ildə bizim coğrafiyada ermənilərin sayı 2 dəfə azalıb"

## Natiq Cəfərli: "Bunun əsas səbəbi Türkiyəyə xəyanət, "böyük Ermənistan" nağılı və mifi, Rusiyaya bağladıqları böyük ümidlər, qonşulara qarşı aqressiya olub"

**"Ermənistan əhalisi son 30 ildə 13 faizə yaxın azalıb". Bu barədə ReAL Partiyasının sədr müavini, iqtisadçı Natiq Cəfərli məlumat verib.**

Ekspert deyib ki, Ermənistanda rəsmi rəqəmlərə görə, 2 milyon 900 min insan yaşayır, amma real rəqəmlər, təqribən, 2,2 milyon nəfər civarındadır: "Bu gün Türkiyədə 100 min, Gürcüstanda 300 minə yaxın, Azərbaycanda (Xankəndi və ətrafı) 40-50 minə yaxın, Ermənistanda isə 2,2 milyon nəfər, ümumilikdə isə 2 milyon 650 min civarında erməni əsilli vətəndaş yaşayır. Son 150 ildə bizim coğrafiyada ermənilərin sayı 2 dəfə azalıb. Bunun əsas səbəbi Türkiyəyə xəyanət, "böyük Ermənistan" nağılı və mifi, Rusiyaya bağladıqları böyük ümidlər, qonşulara qarşı aqressiya olub. Erməni əhalisinin "baş bilənləri", xarici kəşfiyyata qulluq edən xadimləri, Rusiya agentləri son 150 ildə sayların 2 dəfə azalmasına səbəb olublar. Onlar yaşadıqları yerlərdə xəyanət etməsəydilər, Rusiyaya güvənib arxadan qapı qonşularını vurmasaydılar, bu gün coğrafiyamızda erməni əsilli vətəndaşların sayı 10 milyondan çox olardı. Ermənistan siyasətçiləri papaqlarını qarşılarına qoyub düşünsünlər ki, son 150 ildə onların itirdikləri qazandıqlarından qat-qat çox olub. Tək qazancları dünyaya səpilmiş diasporalarıdır ki, onların da təsiri getdikcə zəifləyir. Daxili çəkişmələri, diaspora ilə Ermənistan hökuməti arasında fikir ayrılıqları getdikcə artır. İtirdikləri isə göz qabağındadır".

**N.Cəfərliyə görə, əgər yaşadıqları yerlərdə Rusiyanın təkidi ilə vətəndaşları olduğu ölkələri arxadan vurmasaydılar, bu gün Türkiyədə, azı 4-5 milyon erməni yaşayacaqdı:** "Onların öz siyasi partiyaları, məmurları, millət vəkilləri olacaqdı. Azərbaycanda isə azı 500 min erməni yaşayacaqdı. Hətta ölkəmizin daha demokratik olmasına səbəb olacaqdılar. Olmadı, anlamadılar, rusun buyruq qulu olub öz millətlərinə ziyan etdilər. Heç olmasa indi ayılsınlar, hələ də gec deyil. Qonşularla sülh, əmin-amanlıq, dostluq şəraitində yaşamağı seçsinlər ki, həm ölkələri inkişaf etsin, həm də demoqrafik vəziyyətləri faciəvi "əyridən" geri dönə bilsin. Belə davam etsə, 50 ildən sonra coğrafiyamızda yaşayan ermənilərin sayı 1,5 milyon nəfərə qədər enəcək. Seçim onlarındır".

**İsmayıl Qocayev**

# Lirəni qorumaq olmur

## Siyasi səbəblər Türkiyənin valyuta bazarına təsirlərini gücləndirməkdədir



**”Lirə ucuzlaşmaqda davam edir. 1 ay öncə 1 dollar almaq üçün 9.85 lirə ödəmək lazım idisə, indi bu rəqəm 13.87-dək dəyişib. Bu o deməkdir ki, 1 ay ərzində 30 faizə yaxın dəyər itirib”. Bu sözləri millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, lirənin ucuzlaşmasının əsas səbəbləri Türkiyənin cari hesablaşmalar balansındakı kəsir və özəl sektorun böyük həcmdə xarici borclanması olsa da, siyasi faktorlar da az təsirə malik deyil: ”Digər tərəfdən, siyasi səbəblər Türkiyənin valyuta bazarına təsirlərini gücləndirməkdədir.**

Hələlik, qardaş ölkənin uçot stavkasının dəyişməklə bağlı qərarları lirəni qoruya bilmir. Əslində, Mərkəzi Bankın uçot stavkası aləti ilə vəziyyətin kardinal dəyişəcəyinə ümid edənlər də çox deyil. Türkiyəyə daxil olan valyutanın həcmi də azalıb və dollar tələbinin ödənilməsinə neqativ təsir göstərir. Bu baxımdan, lirənin ucuzlaşmasının qarşısının alınması üçün iqtisadi intervensiyalar ilə yanaşı, Qərb ölkələri ilə münasibətlərdə siyasi stabillik də önəmlidir. Türk lirəsinin ucuzlaşması Azərbaycanın ticarət dövriyyəsinə ciddi təsir göstərməsə də, həm iqtisadi, həm də psixoloji baxımdan qardaş ölkədə milli valyutanın dəyərsizləşməsi bizim üçün arzuolunan deyil. Türkiyə İtaliyadan sonra Azərbaycanın ikinci ən böyük ticarət tərəfdaşıdır. Azərbaycanla Türkiyə arasında ticarət dövriyyəsi 2020-ci ildə 4,5 milyard ABŞ dollarına yaxın olub. Eyni zamanda Türkiyə Azərbaycanın qeyri-neft ixracatında Rusiyadan sonra ikinci ən böyük tərəfdaşdır. Azərbaycanın qeyri-neft ixracatının təxminən 33 faizə yaxını Türkiyə bazarına yönəlib”.

*V.Bayramovun sözlərinə görə, Azərbaycan Türkiyə ilə ticarət dövriyyəsində təxminən 1,7 milyard dollar həcmində müsbət saldoya malikdir:* ”Biz həm ümumi ticarət dövriyyəsi, həm də qeyri-neft ixracatında Türkiyəyə ixrac edilən və Türkiyədən idxal edilən məhsulların strukturuna diqqət yetirsək, deyə bilərik ki, türk lirəsinin ucuzlaşması bizim ticarət dövriyyəmizə ciddi təsir göstərməyəcək. Çünki Azərbaycanla Türkiyənin ticarət dövriyyəsində enerji ixracatının payı yenə yüksək olaraq qalır. 2021-ci ildə də bu iki dövlət arasında enerji sahəsində əməkdaşlıq yüksək olacaq. Belə ki, 2021-ci ildə Azərbaycan Türkiyəyə səkkiz milyard kubmetr təbii qaz nəql edəcək. Qazın qiyməti və ödəniş valyutası məhz ABŞ dolları ilə müəyyənləşdirildiyinə görə milli valyutadakı məzənnə dəyişikliyi buna təsir göstərmir. Amma Türkiyə lirəsinin ucuzlaşması Türkiyədən Azərbaycana idxal edilən məhsulların xərcinin azalmasına və Türkiyədən daha çox məhsulun idxal edilməsinə gətirib çıxara bilər. Nəticə etibarilə güman edilir ki, Türkiyədə inflyasiya optimallaşarsa, qardaş ölkənin məhsulları dünya və Azərbaycan bazarında ucuzlaşacaq. Çünki lirə dəyər itirməkdə davam edərsə, digər xərclərdə, xüsusilə istehsal xərclərində lirə ifadəsində dəyişiklik baş verməzsə, bu, həmin məhsulların digər valyutalarda, o cümlədən Azərbaycan manatında xərcinin azalmasına və ucuzlaşmasına gətirib çıxara bilər. O baxımdan güman olunur ki, lirənin ucuzlaşması davam edərsə, Türkiyədən Azərbaycana idxalın həcmində də artımlar ola bilər”.

**İsmayıl**

## “Tortikollis" xəstəliyi anadangəlmə olur



**Kaş ki, gördüyünüz bu şirin körpə bizə yaraşıqlı olsun deyə boynunu əysəydi, amma təəssüf ki, bu hərəkət onun bilərəkdən etdiyi bir şey deyil. Çünki o, ”tortikollis” xəstəsidir.**

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, ”tortikollis” boynunun ikitərəfli əzələsi olan "sternocleidomastoideus "(SCM) əzələsinin bir tərəfinin müxtəlif səbəblərdən qısaldılıb qalınlaşması və başın aşağı əyilmiş olması xəstəliyidir. Bu xəstəliyin diaqnozu adətən körpəlik dövründə qoyulur. Xəstəlik əksər insanda anadangəlmə olur. ”Tortikollis”in yaranma səbəbi doğum zamanı meydana gələn əzələ, damar və ya sinir travmasıdır.

Müalicəsi zamanı fiziki müalicə üsulu tətbiq edilir və 90 faizdən çox uğurlu nəticə verir.

Yalnız fiziki müalicənin müsbət nəticə vermədiyi xəstələrdə cərrahi əməliyyat və cərrahi əməliyyatdan sonra fiziki müalicə məşqləri ilə yaxşılaşma əldə edilir.

**Günəş Mərd**

## Nəyə görə peyvəndlər qolumuzdan vurulur?



**Məlum olduğu kimi, bir çox peyvəndlər çiyin yaxınlığında yerləşən qolumuzun ”deltoid əzələsindən” əzələdaxili yeridilir. Qolunuzu düz tutduğunuz zaman çiyninizdə qabarıqlıq yaradan əzələ deltoid əzələdir.**

3 yaşdan kiçik uşaqlarda vəziyyət bir qədər fərqlidir, çünki uşaqların deltoid əzələsi tam inkişaf edə bilmədiyi üçün omba üzərində peyvənd edilir.

”Şərq” xarici mediaya istinadən xəbər verir ki, peyvəndin qolumuza vurulmasının əsas səbəbi çiynimizdəki deltoid əzələnin bunun üçün son dərəcə uyğun bir əzələ hesab olmasıdır.

Deltoid əzələ əhəmiyyətli sayda immun hüceyrə ehtiva edir və beləliklə, peyvəndlər vasitəsilə vücudumuza daxil olan mRNT və zəifləmiş virus kimi ”antigenlər” əzələmizdəki çox sayda immun hüceyrə tərəfindən asanlıqla tanınır.

Bədənin immun sisteminin qalalarından olan qoltuqaltı limfa düyünlərinə yaxın olur və tanınan antigenlərin buradan sürətlə ötürülməsinə şərait yaradır. Ətrafındakı piy toxumasının çox qalın olmaması kimi üstün xüsusiyyətləri var.

Piy toxuması nə qədər qalın olarsa, iltihab və ağrı ehtimalı bir o qədər çox olar, çünki yağ toxumasında qan axını zəifdir.

Peyvəndin qoldan vurulmasının daha bir səbəbi isə peyvənd mərkəzlərində və xəstəxanalarda prosesin bu şəkildə daha rahat həyata keçirilə bilməsidir.

**Günəş**

## “Azercell" abunəçilərinin nəzərinə!

**”Azercell Telekom” MMC bütün abunəçilərini yalnız rəsmi mənbələrə istinad etməyi, o cümlədən müxtəlif sosial şəbəkə, ”WhatsApp” tətbiqi, SMS və digər kanallar üzərindən göndərilən şübhəli məzmunlu keçidlərə və ismarıclara reaksiya verməməyə çağırır.**

Əlavə çətinliklər ilə qarşılaşmamaq, yanlış məlumatlar nəticəsində yarana biləcək xərclərin qarşısını almaq üçün ”Azercell Telekom” MMC öz abunəçilərinə şübhəli zənglərə və SMS-lərə cavab verməməyi, etibar doğurmayan mənbələrdən istifadə etməməyi, yalnız rəsmi məlumatlara istinad etməyi, həmçinin cihaz və nömrə ilə bağlı təhlükəsizlik tədbirlərinə əməl etməyi, şifrələri 3-cü şəxslərə bildirməməyi, şübhəli məzmunlu müxtəlif oyun, yarışma və s. yararlanmamağı tövsiyə edir.

# Bakıda dönərdən zəhərlənmə baş verib

## 8 nəfər zəhərlənib, onlardan birinin vəziyyəti orta ağırdır

**Bakıda kütləvi zəhərlənmə olub. Bu barədə Kliniki Tibbi Mərkəzin mətbuat xidmətinin rəhbəri Elnur Hidayətoğlu məlumat verib. Məlumata görə, zəhərlənmə hadisəsi dönərdən baş verib.**



Zəhərlənən şəxslər Kliniki Tibbi Mərkəzin toksikologiya şöbəsinə yerləşdirilib.

Səhər saatlarında 8 nəfər zəhərlənmə ilə xəstəxanaya yerləşdirilib. Onlardan birinin vəziyyəti orta ağırdır. Zəhərlənənlərdən biri 16 yaşlı yeniyetmədir:

”Zəhərlənmə hadisəsi paytaxtın Nəsimi rayonu, metronun ”28 May” stansiyasının yaxınlığında, ”28 Mall” Ticarət Mərkəzinin qarşısındakı dönər evində baş verib. Zəhərlənən şəxslər bir ailənin üzvləri deyil, ayrı-ayrı şəxslərdir. Həmin şəxslər müxtəlif saatlarda obyektdən dönər alıb”, - məlumatda deyilir.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib ki, zəhərlənmə faktı ilə əlaqədar müvafiq ekspertiza təyin olunub. Hazırda Nəsimi Rayon Polis İdarəsində bununla bağlı araşdırmalar aparılır.

Qeyd edək ki, zəhərlənmə paytaxtın Nəsimi rayonu, metronun ”28 May” stansiyasının yaxınlığında, ”28 Mall” Ticarət Mərkəzinin qarşısındakı dönər evində baş verib.

Səhər saatlarında 8 nəfər zəhərlənmə ilə xəstəxanaya yerləşdirilib. Onlardan birinin vəziyyəti orta ağırdır.

Bakıda dönərdən zəhərlənərək Kliniki Tibbi Mərkəzə yerləşdirilən 8 nəfərin adları da məlum olub.

Mərkəzin mətbuat xidmətinin rəhbəri Elnur Hidayətoğlu Trend-ə açıqlamasında bildirib ki, zəhərlənən şəxslər Bayramov Cavid, Xəlilov Murad, Fəttahova Tünzalə, Əliyev Həmid, Soltanov Səid, Mirzəyev Rafiq, Ömərov Qüdrət və Soltanov Maqsuddur.

Vəziyyətləri yaxşı olduğu üçün Qüdrət Ömərov və Murad Xəlilov evə buraxılıblar.

Digərlərinin müalicəsi davam etdirilir. Zəhərlənənlərdən birinin 16 yaşı olduğu üçün Mərkəzin tabeliyindəki 2 saylı Kliniki Uşaq Xəstəxanasına yerləşdirilib. Onlar toyuq dönəri alaraq yediklərini bildiriblər.

## Avtobusda 18 min manat aparan qadın qarət edildi

### İctimai nəqliyyatda cibgirliklə məşğul olan şəxslərə qarşı əməliyyatlar həyata keçirilib



**Bakı Şəhər Baş Polis İdarəsinin əməkdaşları tərəfindən paytaxt ərazisində avtobuslarda cibgirlik və oğurluqlarla məşğul olan şəxslərə qarşı növbəti əməliyyatlar həyata keçirilib. Bu barədə “Şərq”-ə Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.**

Nəticədə qeyd edilən hadisələri törətməkdə şübhəli bilinən daha 3 nəfər Xalidə Hüseynova, əvvəllər məhkum olunmuş Fərid Səfərov və Elçin Hacıyev saxlanılaraq məsuliyyətə cəlb edilib.

Aparılan araşdırmalar zamanı müəyyən edilib ki, Xalidə Hüseynova paytaxtın Nizami rayonunda 113 nömrəli marşrut xətti ilə hərəkət edən avtobusda bir nəfər qadının çantasını oğurlayıb. Həmin vaxt zərərçəkənin çantasında 3 min manata yaxın pul, 15 min manat dəyərində qızıl-zinət və digər şəxsi əşyaları olub. Xalidə Hüseynova ifadəsində oğurladığı qızılları yaşadığı Ağdaş rayonunda satdığını bildirib.

Baş İdarə əməkdaşları tərəfindən saxlanılan Fərid Səfərovla Elçin Hacıyevin isə Nərimanov və Nəsimi rayonlarında avtobuslarda cibgirliklə məşğul olduqları müəyyən edilib. Onların insanların sıx olduğu vaxtlarda sərnişinlərin cibindən mobil telefonlar, pul və digər qiymətli əşyalar oğurladıqları müəyyən edilib.

Qeyd edək ki, saxlanılan hər 3 şəxsin avtobuslarda törətdikləri hadisələrin bir neçəsi, həmçinin, cibgirlik və oğurluq edəndən sonra həmin məkanlardan yayınmaları müşahidə kameraları vasitəsilə lentə alınıb.

Saxlanılan şəxslərin paytaxt ərazisində digər analoji cinayətlər törətdikləri də istisna olunmur. Onların əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki rəsmi səhifələrinə, Bakı Şəhər Baş Polis İdarəsinə və ”102” Xidməti-Zəng Mərkəzinə məlumat verə bilərlər.



## Bəzi obyektlərin 23:00-dan sonra işləməsinə icazə verilməyəcək

**Yaşayış binalarının zirzəmisində olan obyektlərin 23:00-dan sonra işləməsinə icazə verilməyəcək**

Bu barədə məsələ Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının təsdiqlədiyi ”Yaşayış binaları. Layihələndirmə normaları”nda öz əksini tapıb.

Yeni normalara əsasən, insanlara zərərli təsir göstərən aşağıdakı obyektlər istisna olmaqla, yaşayış binasının zirzəmi, kürsülük, birinci və ikinci mərtəbələrində ictimai təyinatlı obyektlərin yerləşdirilməsinə yol verilir:

- istismarı zamanı yaşayış ərazisini və ətraf mühiti çirkləndirə bilən kimyəvi və digər məmulatların ixtisaslaşdırılmış satış mağazaları;
- partlayış və yanğın təhlükəli maddə və materiallar satılan mağazalar;
- sintetik xalça məmulatlarının, avtomobil şinlərinin satış mağazaları;
- ixtisaslaşmış balıq mağazaları;
- müxtəlif təyinatlı anbarlar, o cümlədən topdansatış anbarları;
- saat 23:00-dan sonra iş rejimi olan bütün müəssisələr və mağazalar;


**“XƏZƏRYANI İXTİSASLAŞDIRILMIŞ HƏRRAC MƏRKƏZİ”**
**14 dekabr 2021-ci il tarixli “ŞƏRQ” qəzeti üçün**

**Mənzil və Q/Y sahəsi**

Lot 176/1. Bakı şəh, Yasamal r-nu, Hüseyn Cavid (Nərimanov) pr-ti, 558 məhəllədə istifadədə olan 0.10086 ha torpaq sahəsində yerləşən 30 nömrəli, 5 mərtəbəli binanın 1-ci mərtəbəsində ü/s 43.8 kv.m, y/s 30.8 kv.m ibarət 2 otaqlı, mənzil. Bakı şəh, Yasamal r-nu, Hüseyn Cavid (Nərimanov) pr-ti, 558 məhəllə, 30 nömrəli, binanın zirzəmisində ü/s 78.0 kv.m, olan q/y sahəsi.

İlkin Satış qiyməti 500 000 manat. Açıq hərrac 17 dekabr 2021-ci il tarixdə saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 5% həcmində olan beh hərrac təşkilatının depozit hesabına ödənilməlidir. Hərracda qalib olunan şəxs alış qiyməti 7 təqvim günü ərzində bankın depozit hesabına köçürülməlidir. Qalib olmayan alıcıların behləri 7 təqvim günü müddətində geri qaytarılır.

Açıq hərracda iştirak etmək üçün aşağıdakı sənədlər Hərrac Mərkəzinə təqdim olunmalıdır:

**1)** Fiziki şəxslər - şəxsiyyət vəsiqəsinin surətini və hərracda iştirak etmək üçün ərizə (sifariş)

**2)** Hüquqi şəxslər - təsis sənədlərinin surətini və hərracda iştirak etmək üçün ərizə (sifariş)

**3)** Satış qiymətinin 5% məbləğində behin ödənilməsi haqqında qəbz

Hərracın keçirilmə yeri və ünvanı: Bakı şəh., Nərimanov r-nu, Yusif Vəzir Çəmənzəminli küçəsi 119C (”Afen Plaza” 4-cü mərtəbə). Tel: (+994 12) 511-00-94; Mob: ( +994 70 ) 311-00-94

**“Bakı Hərrac Mərkəzi” MMC**

Lot657/21. “Shacman” markalı, 56 BE 746 dövlət qeydiyyat nişanlı avtomobil. Təkrar hərracdakı satış qiyməti 5400 manat. Əmlakın 13 dekabr 2021-ci il tarixində keçirilən ilkin hərracı baş tutmamışdır. Təkrar hərrac 20 dekabr 2021-ci il tarixində saat 11:00-da keçiriləcəkdir. Satış qiymətinin 10%-i həcmində beh hərrac təşkilatına ödənilməlidir. Alış qiyməti 7 təqvim günü ərzində sifarişçi icra şöbəsinin hesabına ödənilməlidir. Açıq hərracda iştirak etmək üçün lazımi sənədlər: F/Ş şəxsiyyət vəsiqəsi, H/Ş təsis sənədləri. Ünvan: Bakı şəh., Yasamal ray, məhəllə 593, Ə.Salamzadə küç. 2C (3-cü mərtəbə). Tel: 055-206-66-67

**Elan**

Şerifova Könül Şıxməmməd qızına məxsus olan əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
-MÜHASİBAT (2 AY)
-Mobil telefonların təmiri (3 ay)
-KOMPYUTER (1-3 AY)
-KOSMETOLOGİYA və VİZAj (3 AY)
-KİŞİ və QADIN BƏRBƏRİ (1-3 ay)
-Dizayn (3-6ay)
-Masaj (3 ay)
-Biçmə - Tikiş (3 ay)
-Məktəb Psixologiyası (12 ay)
**Tel: (012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**



Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, Nailə Cabarova, İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2649





## Pişik paltaryuyan maşınında...

Vəziyyəti fərq edəndə ev sahibi dəhşətə gəlib

**Türkiyənin Artvin bölgəsi, Bolçka əyalətində qeyri-adi hadisə baş verib. Ev sahibi yorğanı yuyulmaq üçün paltaryuyan maşına atıb.**

Evdə bəslədiyi pişik balası isə yorğanın arasında imiş. Sahibi maşın fırlanmağa başlayarkən yorğanın arasında qaraltı görüb. Bunun pişik olduğunu anlayanda dəhşətə gəlib. Maşının qapağını açmağa çalışsa da, bacarmayıb. Cəld xilasetmə servisinə zəng edib. Xilasetmə əməkdaşları evə gəlib, əvvəlcə toplanmış suyu maşından xaric edib, sonra isə maşının qapağını açıb, pişiyi çıxarıblar. Pişik çətin nəfəs alırmış. Əməkdaşlardan biri pişiyə oksigen balonu ilə hava verib. Nəhayət, pişik ayılıb. Əməkdaşlar xəbərdarlıq edir ki, paltaryuyan maşını camaşırlarla yükləyərkən diqqətli olmaq lazımdır. Kiçik metal parçaları, bərk əşyalar paltaryuyan maşını xarab edə bilər.

**Məlahət**

## İtlərdən qaçan vaşaq...

Ağacın təpəsinə dırmaşdı



**Türkiyənin Tunceli bölgəsində, Kanqal cinsli itlərdən qaçaraq ağaca dırmaşan vaşaq cib telefonu vasitəsi ilə qeydə alınıb.**

"Şərq" xəbər verir ki, dünyada nəsli tükənmək təhlükəsiylə qarşı-qarşıya qalan, birinci dərəcəli qoruma altında olan və Beynəlxalq Təbiəti Qoruma Birliyinin (IUCN) qırmızı siyahısında yer alan vaşaq, Tuncelinin Çukur kəndində Kanqal itlərdən qaçaraq bir ağacın təpəsinə dırmaşıb.

Vaşağı ağacın zirvəsində görən Düzgün Çətin, o anları cib telefonu ilə qeyd edib. D.Çətin itləri ərazidən uzaqlaşdıraraq vaşağın ağacdan enməsinə şərait yaradıb: "Əvvəl itləri uzaqlaşdırdım. Sonra qorxu içində ağacın təpəsində qalan vaşağın enməsini təmin etdim. Vaşaq daha sonra təbiətə döndü".

**Turan**



## 92 il sonra...

### Azərbaycana 29 baş zubr gətirilib

**"Nəsli kəsilmiş zubrların bərpası, onların ölkə təbiətinə reintroduksiya olunması və artırılması məqsədilə 2019-2020-ci illər ərzində Avropadan Azərbaycana 17 baş zubr gətirilərək Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisində təbiətə buraxılıb".**

**Bunu "Report"a açıqlamasında Şahdağ Milli Parkının direktor müavini Cəlil Rzayev deyib.**

**O bildirib ki, hazırda parkda olan zubrların sayı 29 başdır: "Zubrların son nəsli Cənubi Qafqazda 1937-ci ildə kəsilib. Təkrar olaraq İDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və WWF-in Azərbaycan ofisi tərəfindən həyata keçirilən zubrların reintroduksiya layihəsi çərçivəsində Avropadan Azərbaycana zubrlar gətirilib. Hazırda Şahdağ Milli Parkının İsmayıllı bölməsinin ərazisində 29 baş zubr var və təbiətimizə tam olaraq uyğunlaşıb".**

## Bu çay qripdən 1 günə sağaldacaq



**Qışda qrip olanların sayı hər zamankindən qat-qat çox olur. Bunun üçün çalışıb immuniteti daim yüksək saxlamaq lazımdır. Ədviyyatlar güclü mikrob, virus və iltihab əleyhinə təsirə malikdir.**

**Axşam.az xəbər verir ki, soyuqdəymə zamanı ədviyyatlardan istifadə nəfəs yollarını selikdən və mikroblardan təmizləyir, boğaz ağrısını azaldır, xəstənin vəziyyətini yüngülləşdirir, sağalmanı tezləşdirir.**

**Soyuqdəymə zamanı belə faydalı ədviyyatlı içki hazırlaya bilərsiniz. Kiçik termosa 1/2 ç.q. sarıkök, 1/2 ç.q. darçın, sürtgəcdən keçirilmiş zəncəfil kökü (3-4 sm uzunluqda), üzərinə yarım l isti su tökün, 1 saat termosda dəmləyin. Sonra dəmləməni yaxşı süzün və gün ərzində bir neçə dəfə yarım stəkan olmaqla ılıq halda için. Qəbul etdikdən əvvəl dəmləməyə bal və limon əlavə edin.**







# Ruhlardan qorxur, məktəbi sevmir

Rihanna haqqında indiyədək bilinməyən 10 həqiqəti təqdim edirik



**Məlahət Rzayeva**

**Barbadosda dünyaya gəlib ABŞ-da dünya şöhrəti qazana müğənni Rihanna səsi ilə yanaşı gözəlliyi və mükəmməl bədən quruluşu ilə heyrətləndirməkdə davam edir. "Şərq" xarici mediada yer alan xəbərlərə istinadən Rihanna haqqında indiyədək bilinməyən 10 həqiqəti təqdim edir.**

**1.** Ruhlardan qorxur. Rihanna kiçik yaşlarında olarkən bir dostunun evində "şeytan çıxartma" ayininin şahidi olub. O gündən bəri də ruhlar, gözəgörünməz varlıqlar ən böyük qorxusudur. Bu qorxu səbəbindən "Blues Brothers" qrupunun üzvü John Belushinin yüksək dozada narkotik maddə qəbulu səbəbindən Chateau Marmont Otelində vəfat etməsi hadisəsindən sonra Rihanna bu otelin adını belə eşitmək istəmir, heç vaxt da ora getməyəcəyini bəyan edib.

**2.** Rihannanın atası Ronald Fenty narkotik maddə asılısı olub. Uşaq yaşlarında Rihanna atasının evdə narkotik maddə istifadə etdiyini dəfələrlə görüb. Rihanna 14 yaşındaykən valideynləri boşanıb.

**3.** Nə gəldi yeyir. Rihanna kulisdə, evdə, səyahətə çıxdığı zaman kalori miqdarını nəzərə almadan, kökələ biləcəyindən ehtiyat etmədən könlü istədiyi qidaları sifariş edir. Süfrədə bolluca qidalar olması xoşuna gəlir.

**4.** Rihanna konsert öncəsi papaq, şlyapa, eynək... bu kimi əşyalarla kamuflyaj edərək pərəstişkarları arasında dolaşmağı sevir. Onu heyranlarının nə düşündüyü, haqqında nələr danışdıqları çox maraqlandırır. Əlbəttə, bu gəzintilər zamanı qorumaları da gizlincə onu təqib edir.

**5.** Rihannanın bədənindəki döymənin tərcüməsi "əsla bacarıqsızlıq deyil, hər zaman bir dərs"dir. Amma bu sözlər tərsinə həkk edilib. Ona görə ki, Rihanna güzgü qarşısında dayandıqda o sözləri oxuya bilsin.

**6.** Məzun olmayıb. Rihanna lisey məzunu olmayıb. Musiqi karyerası başladıqda liseydən ayrılıb. Sonradan liseyi tamamlamaq fürsəti olmayıb, bu, onu heç maraqlandırmayıb da.

**7.** Məktəbə nifrət edir. Dünyada ən çox qazanc əldə edən pop-star olmasaydı, psixoloq olmaq istərdi. Amma bunun üçün yenə də məktəbə getmək lazım gələcəkdi. Rihanna isə məktəbə getməyi heç vaxt sevməyib, hətta nifrət edib. Allaha şükür edir ki, onu sevdiyi istiqamətə yönəldib.

**8.** Rihanna ayaqlarını 1 milyon dollara sığortalayıb. Hər yerə, hər şeyə xərclənən pullar müqabilində ayaqlar da çox önəmlidir.

**9.** Rihanna yaxın rəfiqəsi, məşhur müğənni Keti Perrinin, bizim dillə desək, toy sağdışı olmalıydı. Gəlinin əsas köməkçisi, yardımçısı. Amma Hindistanda mahnılardan ibarət albomunun qeydiyyat işləri ilə bağlı vaxtında toya gələ bilməyib.

**10.** Mükəmməl həyatı var. Həyatının mükəmməl olması, ona rahatsızlıq gətirəcək heç bir şeyin olmaması Rihannanı qorxudur. Bəlkə də qorxmaqda haqlıdır. Məşədi İbad demiş: mənim bir eyibim var, o da eyibsizliyimdi. Hər insanda mütləq çatışmayan nəsə var. Rihanna bunu gizlədə bilir, hələ ki.

Əsas məsələ: Ona yaxınlaşanlar Rihannadan hər zaman gözəl qoxu gəldiyini söyləyir. Bunu başqa məşhurlar da təsdiqləyir. Amma nədəndir bu gözəl qoxu, bilinmir.



# Üzünü tanınmaz hala salmışdı

Keçmiş sevgilisini bağışladı və onunla evləndi




**Türkiyənin Hatay bölgəsinin İskendurun qəsəbəsində Berfin Özek (21), 2 il əvvəl üzünə kimyəvi maddə atan keçmiş sevgilisi Casim Ozan Çeltik (23) ilə evlənib.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Berfin Özekin şikayətindən imtina edərək Casim Ozan Çeltiklə nikaha girdiyi fotolar sosial mediada paylaşılıb. 2019-cu ilin 15 yanvarında dərsxanadan çıxıb evinə gedən Berfin Özek, bir müddət əvvəl ayrıldığı sevgilisi Casim Ozan Çeltikin kimyəvi maddə hücumuna məruz qalıb. Üzündə yanıqlar əmələ gələn Özek, müalicəsindən sonra xəstəxanadan evə buraxılıb. Ancaq gənc qızın üzündə ağır yanıq izləri qalıb. Sağ gözü tamamilə görmə qabiliyyəini itirib. Özekin göz qapaqları və dodağı estetik əməliyyat olunub. Hadisədən sonra həbs olunan Çeltik, "qəsdən yaralama" ittihamı ilə mühakimə olunaraq 13 il 6 ay həbs cəzasına məhkum edilib. 2020-ci ilin aprel ayında məhkəməyə ərizə verərək Casim Ozan Çeltik haqqındakı şikayətini geri götürən Özek, daha sonra verdiyi qərardan peşman olduğunu ifadə edərək, o zamanlar böyük bir psixoloji sarsıntılar içərisində olduğunu qeyd edib. Casim Ozan Çeltik yenidən məhkəməyə çıxarılıb. Berfin Özek ilə barışan Casim Ozan Çeltik onunla evlənməyə qərar verib. Berfin Özek, üzünü tanınmaz hala gətirən sevgilisi Casim Ozan Çeltik ilə dünən evlənib. Berfin Özekin evliliyi ictimai mediada gündəm olub.

**Turan**

## Restoranda insident...

Qadın dönər bıçağı ilə kababçıya hücum etdi




**İstanbul Esenyurtda kababçıya gələn qadın sifarişi gecikdiyi üçün əsəbiləşərək ortalığı bir-birinə vurub.**

"Şərq" "Haber Global"a istinadən xəbər verir ki, o, öncə dönər bıçağı ilə təhdid edib, daha sonra iş yerini daşqalaq edib:

İddialara görə, müştəri restorana gəlib, ciyər sifariş verib. Sifarişi gəlmədiyi üçün məkan sahibi ilə mübahisə edib. Hadisənin səbəbləri barədə danışan sahibkar İsmet Erzen bildirib ki, bir qadın müştəri gəlib və ciyər sifariş edib: "Sifarişin hazırlanma müddəti var. Təxmini 10-15 dəqiqə çəkir. Sifarişin çıxdığı vaxtda qadın birdən ayağa qalxıb, bağırmağa başlayıb: "Mən bir saatdır sifariş gözləyirəm, nədir bu rəzalət" deyib.

Mən sifarişinin hazır olduğunu söyləyərək sakitləşməsini söylədim. Qadın qəzəblə sifarişi istəmədiyini bildirdikdə, mən də əsəbiləşərək "Niyə istəmədiyin yeməyi sifariş edirsən" deyə qışqırdım. Müştəri də həmin şkafı yumruqladı. İçəri girib, dönər bıçağını aldı və bizi təhdid etməyə başladı.

'Siz kimsiniz mənə qışqırırsınız, sizi kəsəcəm" deyərək bıçaqla üzərimizə gəldi. Qadını sakitləşdirməyə çalışdıq. Həmin an onun ürəyi getdi. Ayılanda isə kimlərəsə məkanın yerini göndərib. "Qardaşlarım indi Kasımpaşadan gələcək və dükanınızı başınıza yıxacaq" kimi cümlələr işlətdi. Yəni biz nə etdik, bilmirəm. Sadəcə xidmət göstərməyə çalışdıq, insan kimi davrandıq. Bizə beləmi davranmalı idi?!".

**Sücayət Mehti**

## Kadir İnanır 22 gün sonra xəstəxanadan çıxdı



**Keçirdiyi beyin qanamasından sonra xəstəxanaya yerləşdirilən və əməliyyat olunan aktyor Kadir İnanır 22 gündən sonra evə buraxılıb.**

Axşam.az xəbər verir ki, xəstəxana çıxışında aktyor media nümayəndələrinin suallarını cavablandırıb. Binanın arxa tərəfindən özəl avtomobilinə otuzdurulan İnanırın yanında sevgilisi Jülide Kurak da yer alıb.

Pərəstişkarları saatlarla xəstəxana önündə dayanaraq Kadiri görməyə çalışıb. Onun maşından düşməməsi isə tənqid edilib.

Kadir İnanır "Küçə dar olduğu üçün belə bir hal yaşandı. Çox təşəkkür edirəm. Xəstəxanadakılar sağalmağım üçün əlindən gələni etdi" sözlərini söyləyib.